# ODLAR YURDU UNİVERSİTETİ

**“Humanitar, Təhsil və Dillər” fakültəsi**

**“Filologiya və Humanitar Fənlər” kafedrası**

**Bakalavriat səviyyəsinin 050205 - “Filologiya” ixtisası üzrə**

# TƏHSİL PROQRAMI



**Bakı – 2020**

**ODLAR YURDU UNİVERSİTETİ**

**“Humanitar, Təhsil və Dillər” fakültəsi**

**“Filologiya və Humanitar Fənlər” kafedrası**

**Bakalavriat səviyyəsinin 050205 - “Filologiya” ixtisası üzrə**

# TƏHSİL PROQRAMI

*Təhsil proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyinin F-370 saylı 13.08.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin 050205–“Filologiya” ixtisası üzrə Təhsil Proqramı əsasında hazırlanmış, Odlar Yurdu Universitetinin Elmi Şurasının 03.09.2020-ci il tarixli (protokol № 01) iclasında təsdiq edilmişdir.*

## 1. İxtisasın pasportu

1.1 Bakalavriat saviyyəsinin **“050205 Filologiya”** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlar Kabinetinin müvafıq qərarlarına, eləcə də “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı”na uyğun hazırlanmışdır.

1.2. Təhsil Programının məqsədləri aşağıdakılardır:

-Filologiya ixtisası üzrə məzmunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura va kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə va təhsilini artırma imkanlarını müəyyənləşdirir;

-Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik va bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;

-Təhsil Programı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və “050205 Filologiya” ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən Odlar Yurdu Universiteti üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya va auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi tayinatlı ali tahsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dan çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2.Məzunun kompetensiyaları

***2.1.Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnir:***

- Filologiya ixtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- Filologiya ixtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;

-Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji asasları və müasir dünyadakı yeri və roluna dair sistemli va hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarığına;

-Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə qabiliyyətinə;

-İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;

-Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;

-Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;

-Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;

-Peşakar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarığına;
-Peşəkar fəaliyyətini planlaşdırmaq va təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
-Fəaliyyatində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuruna və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
-Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;
-Sistemli düşünə bilmək, sistemləri təhlil edərək elementlər arasında əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemli əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək səriştəsinə;
-Strateji baxış formalaşdırmaq, fəaliyətin mümkün nəticələrini görə bilmək (mümkün, ehtimal edilən və arzu olunan), dərk etmək və qiymətləndirmək qabiliyyəti, fəaliyyyətin gələcəyi haqqında aydın fikirə malik olmaq, risk və baş verə biləcək dəyişiklikləri nəzərə almaq, qərarların qəbulunda yenilikçi və yaradıcı olmaq bacarığına;
-Başqalarına qulaq asmaq, dinləmək, onların ehtiyaclarını, hərəkətlərini anlamaq, fikirlərini öyrənmək, yaranan münaqişələri həll etmək, problemlərin həllinə yönəlik kollektiv əməkdaşlıqda iştirak və fərqli yanaşmalardan istifadə bacarığına;
-Qəbul edilmiş norma, yanaşma va fikirləri tənqidi təhlil etmək, öz baxışlarına və fəaliyyətinə tənqidi yanaşmaq, cəmiyyətdə öz rolunu tənqidi qiymətləndirmək bacarığına.

***2.2. Təhsil Programının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:***

-Filologiya (Azərbaycan dili və ədəbiyyatı) sahəsində təməl araşdırma vərdişlərinə sahib olmaq;(PK-1)
-İxtisas dilini onun müxtəlif aspektləri və funksional üslubları baxımından dərindən öyrənmək;(PK-2)
-Dilşünaslıq və ədəbiyyatşünaslıq sahəsində fundamental konsepsiyalar haqqında bilik və tənqidi baxış inkişaf etdirmək; (PK-3)
-Dilin spesifikası, mahiyyəti və funksiyaları barədə müfəssəl biliyə sahib olmaq; (PK-4)
-Dilin və yazının mənşəyi; dilin inkişaf mərhələləri; dil əlaqələri; dillərin təsnifat prinsipləri; dilin sistemi va strukturu; dil səviyyələri; dilin funksiyaları; dil və nitq, dil və cəmiyyət, dil və mədəniyyət arasında qarşılıqlı əlaqə haqqında ətraflı biliyə sahib olmaq və bu sahələrdə mövcud müxtəlif nəzəriyyələri mənimsəmək; (PK-5)
-Struktur dil vahidləri və onların nitq prosesində yerinə yetirdiyi funksiyalarla bağlı bilik əldə etmək; (PK-6)
-Dilşünaslıq və ədəbiyyatşünaslıq sahələrində tətbiq edilən ümumi metod və üsulları mənimsəmək və kiçik həcmli tədqiqatlarda tətbiq edə bilmək; (PK-7)
-Dilçilik elminin tarixi, keçdiyi inkişaf yolu, hazırkı vəziyyəti və gələcək perspektivləri haqqında biliyə sahib olmaq; (PK-8)
-Dilçiliyin tədqiqat obyektləri ilə bağlı geniş bilik əldə etmək; (PK-9)
-Dilin hazırki mərhələsində dilçilik elminin təməl nəzəri konseptual məsələlərini mənimsəmək; (PK-10)
-Dilçilik elminin nəticələrini praktikaya tətbiq etmə bacarığına yiyələnmək;(PK-11)
-İxtisas dili ilə bağlı ölkənin/ölkələrin ədəbiyyatı, mədəniyyəti, KİV-i və bu ölkələrdə gedən siyasi və sosial proseslər haqqında bilik əldə etmək; (PK-12)

-Ədəbiyyatın spesifikası və mahiyyətinin dərk olunması, bədii mətnin strukturu və analitik təhlilinin aparılması haqqında müfəssəl biliklərə yiyələnmək;(PK-13)
-Ədəbiyyatşünaslığın tədqiqat obyektləri haqqında biliklərə yiyələnmək; (PK-14)
-Ümumdünya ədəbi-tarixi prosesinin ayrı-ayrı inkişaf mərhələləri, qanunauyğunluqlan və nəzəri-təcrübi nəiliyyətləri haqqında bilik əldə etmək; (PK-15)
-Müxtəlif dövrləri, o cümlədən, Antik, Orta əsrlər, İntibah, Maarifçilik, Yeni və Ən Yeni dövrləri təmsil edən ədəbi cərəyanlar, axınlar, formalar, janrlar, bunların takamül yolları, habelə müvafiq dövrlərdə yaşamış şair, yazıçı va filosoflar barəsində müfəssəl məlumata yiyələnmək; (PK-16)
-Ədəbi nümunələrin və folklor nümunələrinin təhlil edilməsi bacarığına yiyələnmək;(PK- 17)
-Ədəbiyyatşünaslıq və folklorşünaslıq sahəsində yazılmış elmi-nəzəri ədəbiyyatla ətraflı şəkildə tanış olmaq; (PK-18)
-Funksional üslubları mənimsəmək, təsnif və tətbiq edə bilmək; (PK-19)
-Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciat qaydalarını, peşakar CV, rezume, istək va tövsiyə məktublarının hazırlanmasını bacarmaq; (PK-22)
-Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi va analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək; (PK-23)
-Layihələrin hazırlanması idarə edilməsində iştirak etmək və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş hayatında şifahi va yazılı kommunikasiya vəsaitlərindən istifadə etmayi bacarmaq; (PK-24)
-Media materialları ilə işləmək, müəyyən mövzular üzrə araşdırmalar aparmaq, faktiki materialları toplamaq, ümumiləşdirmək, nəticə çıxarmağı bacarmaq; (PK-25)

## *3.Təhsil Proqramının strukturu*

3.1 "**050205 Filologiya**" ixtisası üzrə Təhsil Programı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdaki şəkildə bölüşdürülür:

| **Fənlərin sayı** | **Fənnin adı** | **AKTS krediti** |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1. | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə | 4 |

| | | |
|---|---|---|
| | qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq vərdişlərini formalaşdırmaqdan ibarətdir. | |
| 2. | **Azərbaycan dilində işgüzar va akademik kommunikasiya**<br>Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üzrə təlim nəticələrində qeyd olunduğu kimi, fənninin tədrisində başlıca məqsəd tələbələrdə müxtəlif mövzulara aid akademik mətnlər tərtib etmək, təqdimatlar hazırlamaq, şəxsi fikir və mülahizələrini yürütmək, üslubi cəhətdən düzgün elmi normalara yiyələnmək, fənlə bağlı kompentesiyaları (bilik, bacarıq, vərdişlər) inkişaf etdirməkdir. Fənnin mənimsədilməsi zamanı tələbələrdə akademik yazı tələblərini öyrənmək bacarıqlarına sahib olmaq, nitq texnikasının komponentləri, akademik yazının xüsusiyyətləri və növləri, akademik mənbələrlə işləmə və onlardan istifadəetmə bacarıqları formalaşdırılacaqlar. Eləcə də müxtəlif ixtisaslarda təhsil alan tələbələrimizə öz fikirlərini yazılı formada düzgün, aydın, məntiqli, yığcam, anlaşıqlı şəkildə ifadə etmək bacarıq və vərdişlərinin yaradılmasına kömək etmək, kommunikativ ritorikanın nədən ibarət olduğunu, aktiv və passiv leksikasını düzgün aşılamaqdır.<br>Xüsusilə də tələbələrə sözlərin ustalıqla və sənətkarlıqla tələffüz edilməsini öyrətmək, onları müasir ədəbi dilimizin normalarına nitq və orfoepiya texnikasına, sərbəst çıxış etmək bacarığına, bədii oxu məharətinə yiyələndirməkdən ibarət olması məqsəddən doğan əsas vəzifələrdən birbidir. Müasir dövrdə kommunikasiya insanin həyat fəaliyyətinin əsas zəruri şərtlərindən biri və cəmiyyətin mövcudluğunun fundemental təlimidir.<br>Rabitə və kommunikativ strategiyanı, yaradıcılıq texnologiyalarını mənimsəmək, diqqət, dinləmə, onun formaları və mədəniyyətinin kommunikasiya növü kimi mahiyyətini öyrənmək bacarıqlarının önəmini qavramaq, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək, təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış) özünəməxsusluğunu bilmək, müasir Azərbaycan dilinin funksional üslubları barədə məlumatlandırmaq və orfoqrafik, orfoepik qaydaları öyrənmək, işgüzar ünsiyyətdə elektron məktubların və onlayn kommunikasiyaları barədə bilikləri zənginləşdirməkdir.<br>Orfoepiya və orfoqrafiya qaydalarına əməl olunmasının mahiyyətini öyrənmək, işgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq", ictimai həyatda etik davranışları, şifahi və yazılı ünsiyyət vərdişlərini formalaşdırmaq, mənimsətmək, bütün işgüzar resurslardan istifadə etməklə nitq mədəniyyətini yüksəltməkdir. | 4 |
| 3 | **Xarici dildə işgüzar va akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik va işgüzar yazı, şifahi va yazılı bacarıqların aşılanmasına xüsusi diqqat yetirilməlidir. | 15 |

| | | |
|---|---|---|
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali tahsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər) | 6 |
| 4.1.1 | **Fəlsəfə**<br>“Fəlsəfə” kursu bakalavr səviyyəsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Fəlsəfə kursu özündə fəlsəfə tarixi, ontologiya, qnoseologiya, epistemologiya, antropologiya, sosial fəlsəfə kimi istiqamətləri birləşdirir. Azərbaycanda müasir dövrdə yetişəcək ziyalılarımızda yüksək intellektual təfəkkür mədəniyyətinin formalaşmasında, yaradıcı fikir tərzinin yaradılmasında, analitik-təhlil bacarığının inkişaf etdirilməsində fəlsəfi problemlərin mənimsənilməsi əhəmiyyətli rol oynayır.<br>Fəlsəfə “insan-dünya” münasibətləri sisteminin ən ümumi tərəfləri, varlığın və idrakın ən ümumi prinsipləri və qanunauyğunluqları haqqında elmdir. Fəlsəfə digər elmlər üçün həm də metodoloji rol oynayır. Elmi idrak metodları gənc mütəxəssislərin gündəlik fəaliyyətlərinə məqsədəuyğun bir istiqamət verməklə, onlara öz işlərində dəyərli nəticələr əldə etməyə kömək göstərir. Buna görə də gənc mütəxəssislərin üzləşəcəkləri problemlərin həlli zamanı həmin metodlara müraciət etmələri, fəlsəfi mahiyyətini aça bilmələri üçün fəlsəfi biliklərə malik olmaları vacib şərtdir.<br>“Fəlsəfə” fənninin tədris olunmasında əsas məqsəd tələbələrin dünyagörüşü səviyyəsini, nəzəri-metodoloji hazırlığını, yiyələndikləri ixtisasın problemlərinə fəlsəfi yanaşma tərzini aşkar etməkdən ibarətdir.<br>. | |
| 4.1.2 | **Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | 3 |
| 4.1.3 | Müasir dövrdə əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir.<br>Əhalinin hüquqi baxımdan maarifləndirilməsi demokratik, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılmasının mühüm cəhətlərindən olmaqla yanaşı, insan hüquq və azadlıqlarının müdafiəsini daha səmərəli təmin etmək baxımından da böyük əhəmiyyət daşıyır.<br>«Azərbaycan Respublikası Konstitusiyası və hüququn əsasları» fənninin tədrisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bazar iqtisadiyyatı şəraitində ictimai münasibətlərin bütün sahələrinə nüfuz edən bir sıra problemlərin tədqiq edilməsini, vətəndaşların konstitusiya ilə müəyyən edilmiş mülki və əmək hüquqlarının müxtəlif formalarda həyata keçirilməsi üsullarını, mülki hüquq münsibətlərinin subyekti kimi fiziki, hüquqi, dövlət və | |

| | | |
|---|---|---|
| | bələdiyyə qürumlarının hüquqi vəziyyətini, əqdlər, mülki hüquqların həyata keçirilməsi və müdafiəsi müddətlərini, mülkiyyət və müqavilə hüququnun hüquqi əsaslarını, əmək müqaviləsi əsasında işçilərlə işəgötürənlər, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərinin milli hüququn mühüm sahələri olan mülki və əmək hüququ ilə tənzimlənməsini öyrənir. | |
| 4.1.4 | **Məntiq**<br>Məntiq fənni insana imkanları obyektiv qiymətləndirməyə, tez və düzgün qərar verməyə, fikirləri aydın şəkIdə ifadə etməyə, həmsöhbəti düzgün arqumentlərdən istifadə edərək inandırmağa, qeyri-müəyyən vəziyyətlərdən uzaq olmağa kömək edir. Bu fənn məntiqi düşünmə qabiliyyətini qiymətləndirir, məntiqi qanunauyğunluqları qavramaq və tətbiq etmək bacarığını ölçür və müxtəlif sahələrdə məlumat fondunun nə qədər zəngin olduğunu öyrənməyə imkan verir. | |
| 4.1.5 | **Etika**<br>Fəlsəfi elmlər sistemində mühüm yer tutan etika və estetika insan idrakının ən qədim sahələrindən olan əxlaq və gözəllik haqqında elmdir. Çağdaş dövrə xas olan mənəvi problematikanın aktuallığı onun tədqiqinin bütün aspektlərinə marağı artırır.<br>«Etika» gənclərin şəxsiyyət kimi formalaşmasında, onların əxlaqi şüurunun inkişafında mühüm rol oynayan fənlərdəndir. «Etika»nın əsas kateqoriyaları olan xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası fənnin kompetensiyasında mühüm yer tutur. Etika fənni insanlar arasında mövcud olan davranış qaydalarının, əxlaq normalarının tənzim edilməsi ideyasını aşılayır. Tarixi xarakter daşıyan əxlaq problemləri zaman keçdikcə başqalaşaraq yeni məzmun qazansa da, heç vaxt aktuallığını itirmir və cəmiyyətin mənəvi həyatının ayrılmaz hissəsi olaraq qalır. Bu baxımdan, əxlaq haqqında elmin əsas və müstəqil fənn kimi tədrisi zəruridir. | |
| 4.2 | **İnformasiya texnologiyaları (ixtisas üzrə)**<br>İnformatikanın nəzəri əsaslarını və praktik tətbiqini öyrənmədən insan fəaliyyət göstərə bilməz. İnformasiyanın kəmiyyət və keyfiyyət xarakteristikalarını öyrənmək, iqtisadi informasiya sistemlərindən istifadə etmək bacarığını aşılamaq bölmənin əsas məzmunu olmalıdır. İnformasiya sistemlərinin texniki və proqram vasitələrini öyrənmək. o cümlədən, müasir ofis proqramlarından səmərəli istifadə bacarığının öyrədilməsi bölmənin əsas məzmununa daxil edilir. Bölmə kompüter şəbəkələrində və informasiya emalının baza texnologiyalarında səmərəli işləmək bacarıqlarını da öyrədir. | |
| | **İnformasiyanın idarə edilməsi**<br>İnformasiyanın idarə edilməsi fənni İKT baza kompyuter bilikləri fənninin davamı olaraq tədris edilir. Fənnin tədrisində əsas məqsəd - İKT baza kompyuter bilikləri fənnində öyrənilənlərin tətbiqi ilə tanış olmaq, informatlaşmış cəmiyyət dövründə müasir informasiya texnologiyalarının tətbiq sahələrini öyrənmək və onları düzgün tətbiq edə bilməkdir. Belə ki, burada dövlət idarəçiliyində, iqtisadiyyatda, bank və turizm sektorunda, biznes sahəsində informasiya texnologiyalarının rolu, həmçinin bulud texnologiyaları, onun tətbiqləri və modelləri haqqında məlumat verilir. | 3 |

| | | |
|---|---|---|
| | **Sahibkarlığın əsasları və biznesə giriş**<br>Sahibkarlıq mühiti və rəqabəti, kiçik və orta sahibkarlıq, sahibkarlıq fəaliyyətində vergiqoyma, qiymət siyasəti, menecment və marketinq sistemi. Biznesin təşkilati-hüquqi formaları. GZİT təhlil, sahibkarlığın xarici və daxili mühiti. Kommersiya, maliyyə, məsləhət, istehsal sahibkarlığı. Uçot, yenidən bölüşdürmə, stimullaşdırıcı, balanslaşdırıcı və istehsalın yerləşdirilməsi. | |
| | **Politologiya**<br>Politologiya siyasət haqqında elmdir. Siyasi fikrin inkişafının əsas mərhələləri. Azərbaycanın siyasi fikrinin inkişaf mərhələləri. Siyasət cəmiyyətin tənzimləyici, təşkiledici və nəzarətedici funksiyasıdır. Siyasi hakimiyyət və onun daşıyıcıları. Siyasi elita. Siyasi sistem nəzəriyyəsi. Siyasi rejimlər. Siyasi partiyalar və partiya sistemləri. Demokrasiya: əsas təsisatlar. Parlament başlıca demokratik təsisatdır.Seçki sistemləri. Dövlət başlıca siyasi təsisatdır. Siyasi şüur və siyasi ideologiya.Siyasi mədəniyyət.Vətəndaş cəmiyyəti. Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər. Modernləşdirmə konsepsiyası siyasi inkişafın nəzəri modeli kimi. Siyasi texnologiyalar. Siyasi tədqiqatlar və siyasi təhlil. Siyasi qərarların qəbulu. Beynəlxalq münasibətlərin politologiyası.Beynəlxalq siyasətin qlobal problemləri . Dövlətin xarici siyasət fəaliyyəti. | |
| 5 | **İxtisas fənləri** | **120** |
| | **Dilçiliyə giriş**<br>Dilçilk fənləri sistemində xüsusi yer tutan "Dilçiliyə giriş" fənni filoloji təhsilin məzmununu zənginləşdirməkdə və onun səviyyəsini yüksəlltməkdə xüsusi əhəmiyyətə malikdir."Dilçiliyə giriş" fənni tələbələrdə linqvistik dünyagörüşün formalaşmasında xüsusi rol oynayır.<br>"Dilçiliyə giriş" ümumi dilçiliyin sadə kursudur. Bu fənnin əsaslarını başlıca olaraq aşağıdakı problemlər təşkil edir: dilçilik bir elm kimi və onun obyekti, dilçiliyin elmlər sistemində yeri, başqa elmlərlə əlaqəsi, sahələri, şöbələri; dilin mahiyyəti, təbiəti, işarəviliyi, sistemliliyi, onun inkişaf qanunları, dünya dilləri, dillərin təsnifi, dil ilə təfəkkürün vəhdəti,dilin qrammatik quruluşu, dil və nitqin münasibəti, dillə cəmiyyətin əlaqəsi, yazının mənşəyi və s.<br>Dilçiliyə giriş dilçi- filoloqlar üçün baza fənni rolunu oynamaqdan başqa, onların analitik təfəkkürünü möhkəmləndirir, tarixi və ictimai sahədə biliklərini artırır və onların dil öyrənmə qabiliyyətinə təkan verir. Bu fənninin məqsədi tələbələrdə dil və dilçilik haqqında ilkin nəzəri biliyin formalaşmasına kömək etməkdir. Dilçiliyə giriş fənni tələbələrin sonradan bir sıra nəzəri, habelə müəyyən praktik fənlərin tədrisi zamanı rast gələ biləcəkləri müddəaları, nəzəri fikirləri, terminləri və s. daha effektiv qavramaları və yadda saxlamaları üçün ümumi baza yaradır. Bundan başqa, bu fənn dil, onun yaranması, mənşəyi, mahiyyəti, cəmiyyətdə mövqeyi, insan həyatında rolu və s. barədə tələbələrə ümumi məlumat verir və onları dilçilik cəryanları, məktəbləri,<br>bu məktəblərin görkəmli nümayəndələri və onların yaratdıqları nəzəriyyələrlə tanış edir. Dilçiliyə giriş fənni dilin yarusları və onların bir –biri ilə əlaqəsi haqqında tələbələri məlumatlandırır, dillə təfəkkürün əlaqəsini açıqlayır. | 3 |

| | | |
|---|---|---|
| | . | |
| 6 | **Ədəbiyyatşünaslığa giriş**<br>Bədii ədəbiyyat incəsənətin çoxmənalı,çoxsəsli sahəsi kimi həyatı obrazlı şəkildə əks etdirən söz sənətidir."Ədəbiyyatşünaslığa giriş" kursu bədii ədəbiyyatın yaranma və inkişaf qanunauyğunluqları haqqında elmi-nəzəri əsasları mənimsətmək məqsədini güdür. Ədəbi əsərlərin növləri və janrları, onların poetik xüsusiyyətləri, obrazların növləri, yazıçı şəxsiyyəti və zaman, bədii əsərlərin tərbiyəvi əhəmiyyəti, onların forma və məzmun vəhdəti, yaradıcılıq metodları da bu kursun əsas tədqiqat obyektidir.Tarixən mövcud olmuş ədəbi cərəyanları elmi-nəzəri və estetik baxımdan təhlil etmək üçün bu kursun elmi müddəalarını bilmək vacibdir. Bu baxımdan "Ədəbiyyatşünaslığa giriş" kursu tələbələrə bədii ədəbiyyatı daha yaxşı təhlil etməyin elmi-nəzəri əsaslarını mənimsəmə vərdişlərini aşılayır. | **3** |
| **7** | **Şifahi Xalq ədəbiyyatı** (ixtisas ölkəsi üzrə)<br>Şifahi xalq ədəbiyyatı fənni mədəniyyətin və ədəbiyyatın daha dərin qatlarına nüfuz etmək, onun qaynaqlarını, mənəvi-əxlaqi, estetik dəyərlərini əxz etmək baxımından tədris prosesinə daxil edilir. Dili tədris edilən ölkənin şifahi xalq ədəbiyyatı həmin ölkənin xalqlarının yazıya qədərki dövrdə yaratdığı va sonrakı mərhələlərdə inkişaf etdirdiyi bədii söz sənətinin üslub və janr xüsusiyyətlərini, yaradıcıllq ənənələrini, xalq ədəbiyyatının müxtəlif janrlarını, poetikasını, dil və üslub xüsusiyyətlərini öyrədir.<br>Fənnin tədrisi zamanı dünya folklorşünaslığının tarixi, foklor və yazılı ədəbiyyat, müasir folklor məsələləri, Azərbaycan ədəbiyytaında yer alan folklor ənənələri və folklor nümunələri də həmçinin diqqətdən kənarda qalmamışdır | **3** |
| **8** | **Dil tarixi**<br>Azərbaycan dilinin tarixinin öyrənilməsi həmişə diqqət mərkəzində olmuşdur. Azərbaycan dilinin qrammatik quruluşunun müasir vəziyyətini öyrənməklə bərabər onun inkişafının əvvəlki vəziyyətini öyrənmək vacib məsələlərdən biridir.<br>"Dil tarixi" fənni Azərbaycan dilinin fonetik, leksik və qrammatik sistemində baş verən dəyişiklikləri, dil vahidlərinin inkişaf tarixini, eləcə də onların ilkin formalarını müqayisə və qarşılaşdırmalar şəklində tədris edir. Azərbaycan dilinin inkişaf tarixi Orxon-Yenisey abidələri, "Kitabi- Dədə Qorqud" dastanı, M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsəri, Nəsimi, Xətai, Füzuli kimi klassiklərin əsərləri , eləcə də Azərbaycan dilinin dialekt və şivələri kontekstində izah edilir.<br>Fənnin məqsədi Azərbaycan xalqının yaranması ilə birlikdə yaranıb, onun inkişafı ilə birlikdə inkişaf edən və dövrlərin məhsulu kimi formalaşan Azərbaycan dilinin qrammatik quruluşunu, onun səs sisteminin inkişafını, yeni keyfiyyətlər hesabına zənginləşməsi prosesini öyrənməkdən ibarətdir.<br>Fənnin vəzifəsi nitq hissələrinin, qrammatik kateqoriyaların və sintaktik konstruksiyaların tarixi inkişafını öyrənmək, ayrı-ayrı nitq hissələrinə aid qrammatik kateqoriyaları və onların forma göstəricilərini, mövcud sintaktik vahidlərin tarixini, inkişaf xüsusiyyətlərini bütün təfərrüatı ilə tələbələrə | **3** |

| | | |
|---|---|---|
| | çatdırmaqdır. | |
| **9** | **Məntiq və tənqidi təfəkkür**<br>“Məntiq və tənqidi təfəkkür” fənnin tədrisinin əsas məqsədi tələbələrin idrak fəallığını artırmaq, onları düşündürmək, müstəqil qərarlar çıxarmağa yönəltməkdir.Tələbələrin məntiqi düşünmə və mühakimə yürütmək, tənqidi təfəkkür bacarıqlarını inkişaf etdirməkdir. Bakalavrlara işgüzar ünsiyyətdə düzgün, məntiqli nitq sahəsində biliklər vermək, onların gələcəkdə peşəkar fəaliyyətlərini bu istiqamətdə formalaşdırmaq, inkişaf etdirməkdir. Bakalavrların gələcəkdə peşəkar fəaliyyətlərini uğurlu istiqamətdə formalaşdırmaq və inkişaf etdirmək;Məntiq elminin tarixini tələbələrə çatdırmaqdır.İnduksiya və deduksiya yolu ilə arqumentləri müəyyənləşdirərək Məntiqin filoloji elmlərlə münasibətini düzgün qiymətlənirməkdir. | **3** |
| **10** | **Ölkə ədəbiyyatı tarixi**<br>Ölkə ədəbiyyatı tarixi fənninin məqsədi bu va ya digər xalqın ədəbiyyatının inkişaf dövrlərini va mərhələlərini öyrətmək, ölkə ədəbiyyatının ümumdünya ədəbi prosesinə təsirini va dünya ədəbiyyatındakı mövqeyini müəyyənləşdirməkdir Azərbaycan xalqının çoxəsrlik yazılı ədəbiyyatının yaranma tarixini, inkişafının əsas dövrləri və mərhələlərini, əsas ədəbi cərəyanlar və onların aparıcı nümayəndələrini, ədəbi məktəb yaratmış şair və yazıçıların yaradıcılığını tələbələrə öyrətməkdir. Azərbaycan ədəbiyyatının ümumdünya ədəbi prosesinə təsirini və dünya ədəbiyyatında mövqeyini müəyyənləşdirmək də fənnin əsas məqsədlərindən biridir. Proqramda Azərbaycan ədəbiyyatının ən qədim dövrlərindən başlayaraq, 20-ci əsrin sonlarınadək böyük bir dövrün xarakterik və ümumi problemlərinə diqqət yetirilir. Proqramda ədəbiyyat tarixinin elmi dövrləşdirilməsi prinsipləri və çoxillik tədris ənənəsi nəzərə alınmışdır. Fənnin əsas vəzifəsi Azərbaycan ədəbiyyatının qədim dövrdən indiyədək mərhələlərini elmi-nəzəri cəhətdən təhlil etməyi ədəbi prosesin qanunauyğunluqlarını, ədəbi əsərlərin bədii estetik dəyərini, dövrün ümumi mədəni hadisələrlə bağlılığını, əsərlərin bədii özəlliklərini və bütövlüklə sənətkarların yaradıcılıq xüsusiyyətlərini təhlil etməyi tələbələrə öyrətməkdir. Tələbələrə ədəbiyyatın əsas mənbələrini araşdırmaq ədəbi prosesin müxtəlif mərhələlərində müvafıq ölkə ədəbiyyatının tarixində xüsusi yer tutan va ədəbi məktəb yaratmış sənətkarların yaradılcılığının xüsusiyyətlərinə aydınlıq gətirmək, onların yaratdıqları ədəbi nümunələrinin dövrün mədəni-ictimai problemləri ila bağlılığını va ədəbi prosesə təsirini müəyyənləşdirmək öyrədilir. | 28 |
| **11** | **Öyrənilən əsas dil**<br>Hər bir dilin elmi cəhətdən tədqiq olunmasının və praktik şəkildə öyrənilməsinin böyük əhəmiyyəti vardır.<br>Azərbaycan dilinin zəngin tarixi kökləri vardır. Ali məktəblərdə Azərbaycan dilinin tarixi, onun inkişaf dövrləri, dialektləri və müasir vəziyyəti öyrənilir. Bütün bunların dərindən mənimsənilməsi üçün bir sıra dilçilk fənləri, o cümlədən “Azərbaycan dilinin tarixi”, “Dialektologiya”, “Azərbaycan dili” və s. fənlər tədris | **34** |

| | | |
|---|---|---|
| | olunur. Dilçilik fənlərinin hər birinin özünəməxsus mövzusu, məqsədi və vəzifələri vardır. "Azərbaycan dili" fənninin məqsədi- birinci, fonetika, leksika, söz yaradıcılığı və qrammatika (morfologiya və sintaksis) səviyyəsində Azərbaycan dilinin normativ-təsviri sistemi haqqında tələbələrə bilik vermək, ikincisi müasir nitqin müxtəlif üslub və janrlarında Azərbaycan dilinin vasitələrindən funksional istifadənin mahiyyətini açmaqdır. | |
| **12** | **Dünya ədəbiyyatı**<br>Dünya ədəbiyyatı fənninin öyrənilməsində məqsəd tələbələri ümumdünya tarixi-ədəbi prosesinin ayrı-ayrı inkişaf mərhələləri, qanunauyğunluqları və nəzəri-təcrübi nailiyyətləri ilə tanış etməkdən ibarətdir.Dünya ədəbiyyatı (Antik dövr yunan, Roma ədəbiyyatı, Orta əsrlər və İntibah dövrü qərbi Avropa ədəbiyyatı, Türk xalqları ədəbiyyatı, Şərqi slavyan xalqlarının ədəbiyyatı) fənninin proqramı ali filoloji təhsilin bakalavr pilləsi üçün nəzərdə tutulmuşdur.<br>Fənnin tədrisi zamanı Qərbi Avropa mədəniyyəti tarixində önəmli rol oynayan intibah realizmi, barokko, presiyoz ədəbiyyatı, rokoko, klassisizm, maarifçilik dövrlərinə xüsusi diqqət yetirilir. Dünya ədəbiyyatı fənni tələbələrin bədii-estetik zövqünü formlaşdırmaqla yanaşı, onları dünya mədəniyyəti xəzinəsinə layiqli töhfəsini vermiş dahi söz sənətkarlarının yaradıcılığı ilə yaxından tanış edir. Bu fənnin tədrisi zamanı yeri gəldikcə Avropa ədəbiyyatı nümunələri ilə Azərbaycan ədəbiyyatı arasında müvafiq paralellər aparılır, ədəbi-tarixi proseslərin qarşılıqlı əlaqə prinsiplərinə xüsusi diqqət yetirilir. Bütün bunlar tələbələrin ümumdünya ədəbi-estetik fikri ilə dərindən tanış olmasını şərtləndirir. | **18** |
| **13** | **Qədim dil**<br>Türk xalqlarının soykökünün, əski tarixinin, onun tarixi inkişaf mərhələlərinin və türk dillərinin dünya dilləri içərisində yerinin müəyyənləşdirilməsində qədim türk yazılı abidələri əvəzsiz yazılı mənbədir. Qədim türk yazılı abidələri türk xalqlarının milli düşüncə tərzini, mənəvi dünyasını və zəngin dil tarixini əks etdirən möhtəşəm sənət nümunələridir. Bu abidələr eyni zamanda türk xalqlarının milli mənsubiyyətinin, milli şüurunun formalaşmasında böyük rol oynamışdır.<br>Azərbaycan və digər türk dillərinin tarixi inkişaf istiqamətləri, fonetik, leksik və qrammatik kateqoriyaların yaranması və formalaşması bu yazılar əsasında müəyyənləşir. Çağdaş türk ədəbiyyatının, mədəniyyətinin genetik əsasmda qədim türk mədəniyyəti dayanır. Buna görə də qədim türk abidələrinin öyrənilməsi, nəşri, ali məktəblərin filologiya fakültələrində tədrisi türkün tarixinin, mədəniyyətinin, yazısının öyrənilməsi istiqamətində mühüm bir tələbdir.<br>Fənnin tədrisi prosesində tələbələr qədim türk (runik) əlifbasını mükəmməl öyrənir, yazı və oxu vərdişlərinə yiyələnir, mətn üzərində işləyir, müasir Azərbaycan dilindən fərqli fonetik, qrammatik, leksik xüsusiyyətləri aşkarlayır, yeri gəldikcə digər türk dilləri,ədəbi-bədii nümunələrimiz, dialekt və şivələrimizlə müqayisələr aparılır. | **3** |

| | | |
|---|---|---|
| **14** | **Ölkəşünaslıq**<br>Ölkəşünaslıq coğrafiya elminin kiçildilmiş bir «modeli»dir. Ölkəşünaslıq bir diyarın (geniş mənada ölkənin) təbii coğrafi şəraitini, tarixi və mədəniyyətinin (qədim dövrdən müasir dövrə qədər olan tarixini, dövlət quruluşunu, dövlətin iqtisadi-siyasi sahələri, qəhrəmanlıq tarixi, şəxsiyyət, incəsənət, musiqi, ədəbiyyat, elmi-texnika, memarlıq və s.) onun sosial-iqtisadi, siyasi, etnoqrafiya, adət və ənənələrini öyrənən linqvokulturoloji elmdir.<br>Coğrafiya elmləri sistemində "ölkə" termini geniş istifadə olunur və ayrı-ayrı ölkələri öyrənərkən onların dövlət quruluşlan nəzərə alınmadan ölkənin, ərazisi, təbii şəraiti, təbii ehtiyatları, əhalisi, təsərrüfatı, onun ərazi üzrə yerləşməsi, nəqliyyatı və onun inki- şafina tə"sir edən şərait və s. öyrənilir Dünya tarixindən ümumi məlumatlara malik olmaqla yanaşı hər bir xalq öz tarixi keçmişini daha dərin və ətraflı bilməlidir.<br>Ölkəşünaslığın məqsədi elmi-texniki inqilab şəraitində, cəmiyyətlə ətraf mühit arasında qarşılıqlı təsirin gücləndiyi şəraitdə ölkəşünaslığın əsas problemləri tərkibinə ərazinin "komponent" təsvirindən, təsərrüfatın istehsal-ərazi strukturu, inkişaf perspektivini, məskunlaşmasını, əmək və təbii resurslann istifadə xüsusiyyətlərini, ərazinin istehsal bazasını müəyyənləşdirməkdən ibarətdir. Tələbələrdə "ölkə" anlayışı formalaşdırmaqla yanaşı , öz ölkəsini keçmişdən bu günə ətraflı öyrənməkdir. | **3** |
| **15** | **Psixologiya**<br>Psixologiya psixofizioloji, sosial-psixoloji fenomenlər və on¬ların təbiəti, işləmə mexanizmləri, funksiyaları daxil olmaqla insanın psixi həya¬tının, davranışının meydana gəlməsi və inkişafının qanunauyğunluqları haqqında elm olub, psixi pros¬esləri, psixi halları, psixi xassələri, bötüvlükdə psixi hadisələri öyrənən elm sahəsidir. Psixologiyanın predmeti həm konkret şəxsin psixikası və psixi hadisələri, həm də qrup və kollektivlərdə müşahidə olunan psixi hadisələrdir . Psixologiya psixi proseslər, psixi vəziyyətlər və psixi xasslərin insanın davranışında təzahürlərinin öyrənilməsi vasitəsilə psixikaya nüfuz edir. Bu kursda psixologiyanın tarxiri, psixikanın formalaşma mexnizmləri, fəaliyyətin psixologiyası, şəxsiyyətin psixologiyası, eləcə də temperamnet, qabiliyyət və xarakter, emosional-iradi xüsusiuyyətlər kimi mövzular öyrədilir. | **3** |
| **16** | **Ümumi dilçilik**<br>Ali məktəblərdə filoloq müəllim kadrları hazırlığında dilçilik fənlərinin xüsusi yeri və rolu vardır. Tələbələrə dilin fonetik, qrammatik, leksik, frazeoloji, onomastik sisteminə dair ətraflı məlumatın verilməsi, habelə onların dilin mənşəyi, yaranması tarixi ilə müxtəlifi dilçilik nəzəriyyələri ilə dərindən tanışlığı tələbələrin ixtisaslarına dərindən yiyələnmələrinə və elmə böyük həvəs göstərmələrinə səbəb olur. Bu baxımdan filologiya fakültələrində tədris olunan<br>"Ümumi dilçilik" fənninin tədris olunması tələbələrdə dilin qanunlarına və inkişaf qanunauyğunluqlarına böyük maraq və həvəs oyadır.Dilçilik elminin obyekti, təşəkkülü, mövqeyi, sahələri, şöbələri haqqında məlumat almaqla onlarda dilçilik elminin ictimai mahiyyəti haqqında daha aydın təsəvvür yaranır. | **4** |
| 17 | **Üslubiyyat va ritorika**<br>Nitq mədəniyyəti dil vasitəsi ilə insanların düşüncə və fikrini ifadə edən ünsiyyət formasıdır. Nitq mədəniyyəti düzgün danışmaq, tələffüz etmək, dil vasitəsi ilə | 3 |

| | | |
|---|---|---|
| | ünsiyyəti formalaşdırmaq və ədəbi dil normalarını Azərbaycan dilinə tətbiq etməkdir. Nitq mədəniyyəti üslubiyyatla sıx bağlıdır. Dilçiliyin bir sahəsi kimi nitq mədəniyyəti 19-cu əsrin sonu 20-ci əsrin əvvələrində dilçilikdən ayrı bir fənn kimi formalaşmağa başlamışdır. Üslubiyyatın da nitq mədəniyyətinin də predmeti sözdür.<br>Hər bir fənn hər hansı bir ehtiyac və tələbat nəticəsində meydana çıxmışdır. İnsanlar arasında dialoq mədəniyyətinin inkişafı, nitq ünsiyyətinə ehtiyacın çoxalması kamil üslubda yazılan (və ya söylənən) nitqin əsaslarının öyrənilməsinin zəruriliyinə səbəb olmuşdur. 1986-cı ildən ali məktəblərin müxtəlif (əsasən, filologiya) fakultələrində "Nitq mədəniyyətinin əsasları", "Nitq mədəniyyəti və üslubiyyat" adlı yeni bir linqvistik fənn tədris olunur. "Üslubiyyat və ritorika" adlı fənnə ali məktəblərin tədris proqramları arasında müəyyən yer verilir. Bu fənnin öyrədilməsində əsas məqsəd mədəni nitqə dair elmi biliklərin artırılması mədəni nitq vərdişlərinin yaranıb dərinləşdirilməsindən, natiqlik sənətinin incəliklərinə yiyələnməsindən ibarətdir. | |
| 18 | **Ədəbiyyat nəzəriyyəsi**<br>Bədii ədəbiyyat incəsənətin çoxmənalı, çoxsəsli sahəsi kimi həyatı obrazlı şəkildə əks etdirən söz sənətidir. Ədəbiyyat incəsənətin digər növlərindən fərqli olaraq həyatı bədii obrazlar və bədii söz vasitəsilə inikas etdirir. Bədii ədəbiyyatda isə bədii təxəyyül əsas rol oynayır. Bədii ədəbiyyat həm də idrak sahəsidir, onun mənəvi, əxlaqi, etik, estetik, tərbiyəvi funksiyaları aktuallığını qoruyub saxlayır. Yaxşı əsər özündə ideya-emosional cəhətləri birləşdirir, insanın kamilləşməsində, milli-vətənpərvər düşüncəyə yiyələnməsində önəmli rol oynayır. Lakin əsəri duymaq, təhlil etmək və qiymətləndirmək asan deyildir. Bu, bədii zövqün yetkinliyindən, ədəbiyyat nəzəriyyəsi ilə tanışlığın dərəcəsindən çox asılı olmaqla yanaşı, həm də onun nəzəri-estetik qavramından asılı olur.<br>Ədəbiyyat nəzəriyyəsi daha çox ümüumbəşəri səciyyə daşıyır, dünya ədəbiyyatının yaradıcılıq ənənələrinə və axtarışlarına söykənir, ayrı-ayrı əsrlərdə meydana çıxan nəzəri konsepsiyaları, fəlsəfi sistemləri izah edir, sistemləşdirir. Bədii ədəbiyyatda forma və məzmun vəhdəti, bədii təsvir və ifadə vasitələri, ədəbi dil və onun normaları, ədəbi növ və janrlar, tipiklik, obrazlılıq, ədəbi məktəb və ədəbi cərəyanlar, yaradıcılıq metodları və s . ədəbiyyat nəzəriyyəsinin tədqiqat obyektidir. | 3 |
| 19 | **Müasir informasiya kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi**<br>Fənn çərçivəsində müasir informasiya-kommunikasiya texnologiyalarının təsnifatı və xüsusiyyətləri; müxtəlif növ kompüter qurğuları və şəbəkə texnologiyaları daxil olmaqla, informasiya texnologiyalarının (İT) asaslan; İkilik say sistemləri kimi müxtəlif məlumatların təqdimetmə sxemləri; İT mühihitində fəaliyyət göstərmək üçün lazım olan alətlar və tətbiqlərə giriş təqdim edilir; informasiyanın kompüter emalının asas prinsipləri (kodlaşdırılması, saxlanması ötürülməsi və s.) öyrədilir.<br>İnformasiya cəmiyyətinin konsepsiyası va xüsusiyyətləri cəmiyyətin informasiyalaşdırılması prosesinin inkişaf mərhələləri müxtəlif sahələrdə informasiya texnologiyalarının rolu (Elektron hayat; Kommunikasiya; Virtual cəmiyyət; Elektron imza və s.) informasiya texnologiyalarının effektivliyinin meyarları, informasiya va kiber təhlükəsizlik; | 3 |

| | | |
|---|---|---|
| | Müasir əməliyyat sistemləri (ƏS) va onların iş prinsipi əmaliyyat sistemlərində faylların idarə olunması; Proqramlaşdırmanın asasları;<br>Şəbəkələşmə;Veb sistemləri və texnologiyaları;<br>Veb səhifələrin hazırlanması (HTML kodları va WYSIWYG<br>redaktorlar);<br>Süni intellekt sistemləri;<br>İnformasiya təhlükəsizliyi va ona nail olma yolları: şifrələmə üsulları; kriptosistemlər; steqanoqrafiya; informasiyanın gizlədilməsi üsulları; şəbəkə təhlükəsizliyi; rəqəm imza texnologiyası; kompüter və informasiyanın kiberhücumlardan qorunması va icazəsiz istifadəsinir qarşısını almaq üçün təhlükəsizlik tədbirlərindən istifadə etmək antiviruslar va s.;<br>MS Office 365 paket proqramlarının tətbiqləri: MS Word mətn prosessorunun imkanları, MS Excel cədvəl prosessorunda mürəkkəb (ixtisas üzra) cədvəllərin qurulması, hesablamaların aparılması va s., Taqdimatların hazırlanması, PDF faylların hazırlanması va redaktəsi Teams proqramı va s.<br>proqramların (tatbiqi proqramların) imkanlarından istifada;<br>Verilənlər bazası (VB), Verilənlər bazasının idarəetmə sistemləri<br>(VBİS) və onun imkanları öyrədilir. | |
| 20 | **Mülki müdafiə**<br>Fənn çərçivəsində fövqəladə halların qarşısının alınması va aradan qaldırılması üçün vahid dövlət sistemi, təbii fəlakətlər zamanı təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq va vəzifələri fərdi və kollektiv müdafiə prinsipləri, qəza-xilasetmə və digər təxirəsalınmaz işlər, ilk tibbi yardımın göstərilməsi, təcili təxliyə və bərpa tədbirləri, təhsil sahəsində mülki müdafiə tədbirləri təşkil etmək<br>kimi məsələlər tədris olunur | 3 |

| | | |
|---|---|---|
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**<br>Burada olan fənlər hər bir ali tahsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasin tədris planinda əksini tapır/ | 60 |
| 21 | **Seçmə fənn** | 4 |
| 21.1 | **Yeni Avropa ədəbiyyatı**<br>"Avropa ədəbiyyatı" geniş anlayışdır, özündə müxtəlif xalqların (alman, ingilis, fransız, ispan, italyan, skandinav və s.) yaratdığı ədəbiyyatı ehtiva edir. Bu fənnin tədrisinə ayrılmış saatların azlığı, təəssüf ki, bir çox xalqların (çex, bolqar, macar, rumin, serb və s.) ədəbiyyatları proqramdan kənarda qalmasına səbəb olur. Proqramda icmal xarakterli mühazirə mövzularına daha çox yer verilməsi də məhz mühazirəyə ayrılmış saatların mövcud imkanlarının məhdudluğu ilə bağlıdır.<br>Mühazirə mövzuları əsasən alman, ingilis, fransız, qismən də italyan və ispan ədəbiyyatının başlıca problemlərini və yaradıcılıq istiqamətlərini əhatə edir. Mühazirələrdə həm icmal, həm də monoqrafik materiallara istinad olunur. Proqramın tərtibində ölkənin başqa ali məktəblərində hazırlanmış müvafiq tədris proqramlarının təcrübəsi də nəzərə alınmışdır.<br>Bu fənndə alman, ingilis, fransız ədəbiyyatlarına geniş yer verilməsinin səbəbi həmin xalqların ədəbiyyatlarının populyarlığı, təsiretmə imkanları və dilimizə tərcümə və tədqiq səviyyəsi ilə bağlıdır. Bu kursun tədrisində əsas məqsəd XX əsr Avropa ədəbiyyatının əsas təmayüllərini və maraqlı örnəklərini gənclərə çatdırmaq. Ekzistensializm, sürrealizm, futurizm, dadaizm, realizm və başqa ədəbi cərəyanlar və onların istiqamət və meyllərinin, eləcə də dünya ədəbiyyatında mövqeyinin nümayəndələri haqqında məlumat verməkdir.<br>Yeni Avropa ədəbiyyatı" fənni üzrə mühazirələrdə İkinci dünya müharibəsindən sonra Avropa ədəbiyyatında baş vermiş janr və forma axtarışları, yazıçıların ictimai-siyasi mövqeyi və fəlsəfi-ideoloji dünyagörüşü haqqında tələbələrə məlumat verilir. Xüsusən fransız ekzistensializmi və alman ekspresionizm aparıcı nümayəndələrinin estetik baxışları təhlilə cəlb edilir. J.-P.Sartr, A.Kamyu, T.Mann, B.Brext, H.Hesse və başqa aparıcı yazıçıların yaradıcılığına ayrıca saat ayrılmış, onların həyat və yaradıcılığı daha geniş təqdim olunur.-bu, onların dünya ədəbi-estetik fikrində yüksək nüfuzları ilə bağlıdır.Fənnin bir özəlliyi də ondadır ki, absurd teatrı və onun nümayəndələri (E.İonesko, S.Bekket və b.) haqqında məlumat verilir. XX əsr Avropa avanqardizminin ən sirli nümayəndələrindən biri olan, Nobel mükafatı laureatı S.Bekketin yaradıcılığı təqdim olunur. | |
| 21.2 | **Azərbaycan dilinin fonetika və qrammatika məsələləri**<br>Fonetika dilin səs-fonem sistemindən bəhs edən dilçilik şöbəsidir. Fonetikanın mövzusu danışıq səsləri olduğundan dilin səs sistemini müəyyənləşdirmək, fonem və fonem variantlarının akustik fizioloji xüsusiyyətlərini öyrənib geniş fizioloji xarakteristikasını vermək, fonetik qanunların, hadisələrin mahiyyətini aydınlaşdırmaq onun başlıca vəzifəsidir. Ahəng qanunu, heca və vurğu da fonetikanın mövzusuna daxildir.<br>Fonetika dilçiliyin bütün sahələri ilə üzvü surətdə bağlı olan bölməsidir. Fonetika bölməsinin tədrisinin əsas məqsədi dil səslərinin əmələ gəlməsini, onların bir-birinə münasibətini, onların fiziologiyasını, keyfiyyət və kəmiyyətini, ədəbi dilin fonemlər sistemini, fonetik qanunlarını, fonetik hadisələrini və s. öyrətməkdir. Dilim qrammatik quruluşu isə "qrammatika" adlanan elm | |

| | | |
|---|---|---|
| | sahəsinin tədqiqat obyektinə daxildir. Dilçiliyin mühüm şöbələrindən biri olan morfologiya isə qrammatikanın bir hissəsidir. Dilçilik elmində morfologiyanın mövzusunu sözün forması təşkil edir. Həmin şöbə bu və ya başqa dildə sözlərin formalarını, onların dəyişilmə şəkillərini öyrənir. Buna görə də morfologiya sözün forması haqqında linqvistik təlimdir.<br>Qrammatikanın bir şöbəsi olan sintaksis sözlrin söz birləşməsi və cümlə şəklində, cümlələrin mətn şəklində əlaqələnməsi qaydalarından bəhs edən bir elmdir. Sintaksisin obyekti söz birləşməsi, sadə cümlə, mürəkkəb cümlə və sintaktik bütövdür. Sintaksis bu vahidlərin hər birinin əlamət və xüsusiyyətlərini, dildəki mövqe və rolunu aydınlaşdırır. Bununla yanaşı, sintaltik əlaqələr, sintaktik semantika anlayışları da elmi sintaksisin əsas anlayışlındandır. | |
| 22 | **Seçmə fənn** | 4 |
| 22.1 | **Azərbaycan ədəbi tənqid tarixi**<br>Azərbaycan ədəbiyyatının mühüm sahələrindən biri ədəbi tənqiddir. Ədəbi tənqidi fikir humanitar,kulturoloji fikir tarixinin vacib hissəsidir. Ədəbiyyatın, ideya və obrazlar aləmi, bədii məzmun, ideal və poetik sənət dünyası məhz ədəbi –nəzəri şərh, qiymətləndirmə, fəlsəfi-sosial mənalandırma yolu ilə öz dəyərini ədəbi tənqiddə tapır. Ədəbi-tənqidi baxışların dərki ədəbi prosesin elmi-nəzəri əsaslarının araşdırılması vasitəsilə ədəbi əsərlər, meyllər, cərəyanlar, ədəbi hərəkatı yaradır. Azərbaycan ədəbiyyatında tənqidin ədəbi və ictimai hadisə olaraq meydana çıxmasını, təşəkkülünü göstərmək üçün mütləq onun qaynaqlarına, qədim və orta əsrlər nəzəri-estetik fikrinə diqqət yetirilir.<br>Tənqidin tarixi, ədəbiyyat tarixinin ayrılmaz hissəsidir. Tənqid tarixinin öz tədqiqat predmeti və istiqaməti vardır. Tənqid tarixi milli ədəbiyyatın özünü dərk tarixidir, milli ədəbiyyat haqqında fikirin tarixini izləmək, sistemləşdirmək və ümumiləşdirmək deməkdir. Müəllif obrazı və mövqeyi, ədəbi-bədii hadisələr, ədəbi dövr və cərəyanlar, ədəbi-mədəni kontekst, bədii əsərlər tənqid tarixinin maraq dairəsindədir. Tənqid tarixi ədəbi proseslə, ictimai, estetik və fəlsəfi fikrin tarixi ilə əlaqədə öyrənilməlidir.<br>Tənqidi – estetik fikir bədii fikrin yaranmasına ehtiyac olanda meydana çıxmışdır (K.Talıbzadə). Bu mənada ədəbi fikrin tarixi bədii sənətin tarixi qədər qədimdir. Bu mərhələdə yaranan əsərin ilk tənqidçisi də müəllifin özüdür. Ədəbi-estetik fikrin sonrakı mərhələsi isə sənət əsəri haqqında ikinci tərəfin rəyinin, fikrinin, münasibətinin yaranması ilə əlaqədar olmuşdur. İlk bədii yaradıcılıq formaları inkişaf edib zənginləşdikcə, ona müvafiq olaraq estetik fikir də dəyişmiş, sənətə təsirin yeni üsullarına yiyələnmişdir.<br>Fənnin əsas məqsədlərindən biri də Azərbaycan ədəbi tənqidinin təkamülünü-qanunauyğunluqlarını təhlil etmək, əsas inkişaf mərhələlərinin səciyyəvi xüsusiyyətlərini, həmçinin Azərbaycanın görkəmli nümayəndələrinin (M.Quliyev, Ə.Nazim, M.Hüseyn, M.Arif, M.Cəfər, Y.Qarayev və b.)yaradıcılığını araşdırmaqdan ibarətdir. Ədəbi tənqid tarixinin metodları, klassik və müasir janrları, tənqidin ədəbi prosesdə funksiyasının müəyyənləşdirilməsi və s. məsələlər haqqında da tələbələrə bilgi vermək fənnin tədrisinin məqsəd və vəzifələrindən hesab edilmişdir. | |
| 22.2 | **Azərbaycan dilinin orfoqrafiyası və orfoepiyası**<br>Orfoepiya ədəbi dilin şifahi qolunu ümumi normalar əsasında formalaşdıran, yəni fonetik cəhətdən ümumiləşdirici normaları təzahür etdirən tələffüz qayda-qanunlarının sistemli məcmusudur.<br>Dil insanların anlaşma və ünsiyyət vasitəsidir. İnsanlar arasında ünsiyyət müxtəlif şəraitdə, | |

| | | |
|---|---|---|
| | müxtəlif tərzdə və müxtəlif məzmunda olur. Məhz ünsiyyətin belə müxtəlif çalarlıqda olması ünsiyyət vasitəsi olan dilin vahidlərinin də müxtəlif çalarlıqda formalaşmasına istiqamətverici təsir göstərir.<br>Orfoqrafiya sözlərin bütün qrammatik formaları üçün vahid yazı qaydaları müəyyənləşdirir. Yazılı ədəbi dilin inkişafında orfoqrafiyanın çox böyük əhəmiyyəti var. Çünki ümumxalq tərəfindən qəbul edilmiş düzgün orfoqrafik qaydalar yazını sabitləşdirir, bunun əsasında da yazılı ədəbi dil inkişaf edir.<br>Fənnin məqsədi Azərbaycan orfoepiyasının əsaslarını, saitlərin, samitlərin düzgün tələffüzünü, tələffüz üslublarından düzgün istifadə etməyi, ədəbi tələffüzün mənbələrini, orfoqrafiya qaydalarını və prinsiplərini tələbələrə çatdırmaqdır. | |
| 23 | **Seçmə fənn** | 4 |
| 23.1 | **Azərbaycan dialektologiyası**<br>. Azərbaycan dialektologiyası müstəqil fənn kimi keçən yüzilliyin ortalarından ali məktəblərin filologiya fakültələrində tədris olunur. Bu fənnin tədrisində əsas məqsəd tələbələri dialektologiyanın nəzəri məsələləri ilə tanış etmək, müasir şivələrin fonetik, leksik və qrammatik quruluşu barədə məlumat verməkdir. Bu fənn dilimizin şivələrini öyrənən dilçilik sahəsidir. Dialektlər dilin canlı arxivi hesab olunur. Tarixən dildə baş vermiş dəyişiklikləri izləmək baxımından dialektologiyanın nəticələri olduqca əhəmiyyətlidir. Azərbaycan dili dialektləri və şivələrin elmi əsaslarla ardıcıl şəkildə tədqiqinə keçən yüzilliyin 20-30-cu illərindən başlanmışdır. Ilkin mərhələdə şivələrin əksəriyyətinə dair dialektoloji material toplanılır.Bununla yanaşı, Bakı, İsmayıllı, Mərəzə, Quba, Ağdam və b.şivələr təsviri metodla tədqiq olunur.Kifayət qədər material toplanması, tədqiq olunan şivələrin sayının çoxalması dialektoloji tədqiqatların müqayisəli-tarixi metod müstəvisində aparılmasına zəmin yaradır.<br>XX yüzilliyin 60-70-ci illərindən etibarən dialektoloji araşdırmalarda şivələr müqayisəli təhlilə cəlb edilir, onların ümumi və fərqli xüsusiyyətləri müəyyənləşdirilir. Qədim yazılı abidələrlə və digər türk dilləri ilə aparılan müqayisələr nəticəsində qədim xüsusiyyətlər aşkara çıxarılır.Şivələr arasında ümumi xüsusiyyətlər şivə qruplarını, fərqli cəhətlər dialekt sərhədlərini müəyyənləşdirməyə imkan verir.<br>“Azərbaycan dialektologiyası” fənni Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisasının bakalavr pilləsində tədris olunan əsas fənlərdən biridir.Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | |
| 23.2 | **Azərbaycan dastanları**<br>Azərbaycan şifahi xalq ədəbiyyatının əsas epik janrlarından biri də dastanlardır. Dastanlarımızda millətin fəlsəfi-əxlaqi baxışları, dünyagörüşü öz əksini tapır, xalqın həyatı və mübarizəsi tarixindən, məişəti ilə bağlı olan fikir və arzularından bəhs olunur. Azərbaycan dastanları da mövzu baxımından iki yerə bölünür: qəhrəmanlıq dastanları və məhəbbət dastanları. Məhəbbət dastanları öz başlanğıcını arxetip olaraq qəhrəmanlıq dastanlarından alsa da, onları bir-birindən fərqləndirən fərdi xüsusiyyətləri də mövcuddur. Məhəbbət dastanlarının sujetinin əsasını təsəvvüf görüşləri, ilahi eşq mövzusu təşkil edir. “Əsli və Kərəm”, “Qurbani”, “Alı xan və Pəri”, “Abbas və Gülgəz”, “Lətif şah” və s. dastanları göstərə bilərik. Qəhrəmanlıq dastanlarına misal olaraq | |

| | | |
|---|---|---|
| | "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" və s. qəhrəmanlıq dastanlarını göstərə bilərik. Burada həmçinin dastan-mif münasibətlərini də düzgün təhlil etmək vacib amillərdəndir. | |
| 24 | **Seçmə fənn** | 5 |
| 24.1 | **Divan ədəbiyyatının poetikası**<br>Bir ədəbi-mədəni hadisə kimi Divan ədəbiyyatı üç dildə- ərəb, fars və türk dillərində yaradılmışdır. Divan ədəbiyyatı ümumşərq yazı və düşüncə mədəniyyətinin mühüm tərkib hissəsidir. Divan ədəbiyyatı türklərin müsəlmanlığı qəbul etmələrindən sonra islam mədəniyyətinin elm,inanc və qaydaların əsasında ortaya qoyduqları ədəbiyyat növüdür.<br>Ümummüsəlman mədəniyyətinin yaranması və islam bayrağı altında birləşən xalqlar üçün müştərək dünyagörüşə əsaslanan müştərək ədəbi mövzular, janr və şeir növlərinin təşəkkülü divan ədəbiyyatının formalaşmasını şərtləndirmişdir.<br>Yazılı ədəbiyyatımızın şərəfli bir tarixini əhatə edən divan poetikası öz əhəmiyyətini bu gündə saxlamaqdadır. Divan poetikası türk, ərəb və farsdilli ədəbi prosesinin minillik tarixi inkişaf və təkamülünü işıqlandıran nəzəri sistemdir. Bu fənnin əsas məqsədlərindən biri klassik ədəbiyyatın mahiyyəti, janr-üslub xüsusiyyətləri, obraz sistemi haqqında məlumat verməkdir. Divan ədəbiyyatının poetikasının öyrənilməsi Azərbaycan ədəbiyyatşünaslığının gərəkli məsələlərindən biridir.<br>Divan poetikası islam ədəbiyyatının nəzəri əsalarını və qanunauyğunluqlarını öyrənir. Proqramda divan ədəbiyyatı ənənəsinin türk, ərəb və fars dilində təşəkkülü və inkişaf təmaülləri zəngin və mürəkkəb struktura formal qanunauyğunluqları, nəzm şəkilləri haqqında, divan ədəbiyyatının mövzu və ideya qaynaqları ("Qurani-Kərim", hədisi-şəriflər, qissələr, təsəvvüf görüşləri, tarixi, əfsanəvi hadisələr və şəxsiyyətlər, şifahi xalq yaradıcılığı və Şərq mifologiyası) barəsində geniş məlumat verilir. Dini və dünyəvi elmlərin, ezoterik görüşlərin divan ədəbiyyatına təsiri ilə bağlı açıqlamalar verilir.<br>Divan ədəbiyyatının XIX-XX əsrlərdəki ənənələri, yeni dövr ədəbiyyatını divan ədəbiyyatından fərqləndirən xüsusiyyətlər, divan ədəbiyyatı və maarifçilik dünyagörüşü, Azərbaycan maarifçiləri (S.Ə.Şirvani, M.F.Axundzadə, Q.B.Zakir, M.Ş.Vazeh və b.) və divan ədəbiyyatı, XX əsr Azərbaycan ədəbiyyatında divan şeirinin təsiri haqqında. H.Cavid, M.Ə.Sabir, M.Müşfiq, S.Mənsur və b. Müasir dövrdə divan ədəbiyyatının durumu haqqında proqramda müəyyən təsəvvür yaradılır. | |
| 24.2 | **Türk əlifbaları**<br>Bu fəndə tarixən türkdilli xalqların, o cümlədən Azərbaycan xalqının istifadə etdiyi əlifbalar haqqında məlumat verilir. Fərhad Zeynalov bu əlifbaların adlarını çəkmiş və onların barədə belə məlumat vermişdir: Orxon-Yenisey əlifbası elm aləminə məlum olan ən qədim əlifbadır. Bu əlifba sağdan-sola, bəzən də yuxarıdan-aşağıya doğru yazılmışdır. Orxon-Yenisey əlifbasında 35 hərf vardır. Uyğur əlifbasından VIII-XV əsrlərdə istifadə olunmuşdur. Bu əlifba sağdan-sola, bəzən də yuxarıdan-aşağıya doğru yazılmışdır. Uyğur əlifbasında 23 hərf vardır. Mani əlifbasından VIII-XI əsrlərdə uyğurlar istifadə etmişlər. Brahmi əlifbası 56 hərfdən ibarətdir. VIII-XI əsrlərdə istifadə olunmuşdur. Bu əlifba ilə dini mətnlər yazılmışdır ki, onlar da budda dini ilə bağlıdır. Soğdi əlifbası da dini yazıların yazılmasında istifadə olunmuşdur. Bu, budda dini ilə bağlı İran mənşəli əlifbadır. 22 hərfdən ibarət olan soğdi əlifbası sağdan-sola doğru | |

| | | |
|---|---|---|
| | yazılmışdır. Ərəb əlifbası X əsrdən başlayaraq, XX əsrin 20-ci illərinə qədər fasiləsiz işlədilmişdir. Latın əlifbası əsasında düzəldilmiş yeni əlifba 1922-ci ildən 1940-ci ilə qədər və 1991-ci ildən sonra istifadə edilməkdədir. Müasir dövrdə türkdilli xalqların istifadə etdikləri qrafika və əlifbalar barədə də tələbələrə məlumat verilir. Kiril əlifbasından istifadə tarixindən bəhs olunur. | |
| 25 | **Seçmə fənn:** | 5 |
| 25.1 | **Azərbaycan ədəbi dilinin tarixi**<br>Azərbaycan ədəbi dili qədim və zəngin türk yazılı ədəbi dillərindən biridir. O, qədim və zəngin ümumtürk mədəniyyəti bazasında, türk dilləri ilə qarşılıqlı əlaqədə inkişaf yolu keçmişdir. Dilin zənginliyi, dolğunluğu onu daşıyan millətin mükəmməlliyi deməkdir. Ədəbi dil xalq dilini intellektuallaşdırır, xalq dili isə onun yaşaması, varlığı üçün baza təşkil edir. Bu iki təzahür arasında daimi ahəngdarlıq qalır.<br>Ümumxalq dilinin müəyyən normaya tabe edilən, normativ tələblər çərçivəsində fəaliyyət göstərən qolu ədəbi dildir. Ədəbi dil xalqın intellekti ilə üzvi əlaqədə yaşayır, intellektə xidmət edir, eyni zamanda onu əks etdirir. Azərbaycan ədəbi dili Azərbaycan xalqının mədəni-intellektual səviyyəsi və ictimai-tarixi hadisələri ilə həmahəng səsləşərək daim tərəqqi yolu ilə gəlmiş, zənginləşmiş və cilalanmışdır. Ədəbi dilin inkişafı ədəbi janrların dil xüsusiyyətləri ilə də bağlıdır.<br>Bu fənnin mövzusu Azərbaycan ədəbi dilinin tarixini, ayrı-ayrı üslubların meydana gəlməsini və inkişafını, fonetik, leksik, qrammatik materialın təbəqələşməsini-müxtəlif üslubların istifadəsi üçün variantlar yaranmasını, frazeoloji birləşmələrin hazırlanmasını və genişlənməsini öyrədir.<br>Fənnin məqsədi ədəbi dilimizin tarixini, təşəkkülünü, onun keçdiyi uzun və mübarizələrlə zəngin yolunu öyrənmək, azərbaycan dilində olan yazı abidələrinin üzərində tədqiqat aparmaq, ədəbi dilimizin həm şifahi, həm də yazılı formaları üçün qəbul edilmiş normaları aydınlaşdırmaq, ən böyük yazıçı-şairlərimizin, ən böyük bədii söz ustadlarımızın dili əsasında öyrənməkdən ibarətdir.<br>Ədəbi dilin tarixi dövrlər üzrə ardıcılıqla təhlil olunur. Dövrlərin müəyyənləşməsində dilxarici hadisələr də nəzərə alınmaqla, dildaxili faktlara, üslubların yaranma və inkişafına, normanın tarixi təkamülünə xüsusi diqqət yetirilir. Ədəbi dil tarixi kateqoriyadır. Müxtəlif ictimai-tarixi inkişaf mərhələlərində o, eyni keyfiyyətdə, eyni məzmunda qalmır. Onun hər tarixi şəraitə uyğun əlamətləri və vəzifələri olur. Cəmiyyətin inkişafı və tarixi şəxsiyyətlərin yetişməsi ilə ədəbi dilin səviyyəsi arasında uyğunluq əyani göstərilir. | |
| 25.2 | **Müqayisəli ədəbiyyatşünaslıq**<br>Ədəbiyyatşünaslığın tarixi ictimai-fəlsəfi və bədii fikrin tarixinin mühüm tərkib hissəsidir. Ədəbiyyatşünaslıq quru elmi hökmlərdən ibarət mücərrəd bir anlayış deyildir. Onun da başqa elm sahələri kimi öz predmeti və tədqiqat obyektləri vardır. Bu elm dinamik, daim inkişafda olan bədii yaradıcılığı-bütünlükdə isə ədəbiyyat nəzəriyyəsinin, ədəbiyyat tarixinin və müasir ədəbi prosesin bəzi problemlərini öyrənir, təhlil edir.<br>Hər bir tarixi dövr, ədəbi-mədəni mərhələ təkcə bədii ədəbiyyatı deyil, həm də onun nəzəriyyəsini yaradır,elmi cəhətdən izah və şərh edir.Beləliklə, ədəbiyyatşünaslıq elmi bədii ədəbiyyatla birlikdə yaranıb inkişaf etmiş, formalaşmış və müstəqil elm sahəsinə | |

| | | |
|---|---|---|
| | çevrilmişdir.<br>Müqayisəli ədəbiyyatşünaslığın tədrisi zamanı xalqın milli ədəbi irsinin dünya ədəbiyyatının inkişaf mərhələləri ilə vəhdəti və qarşılıqlı əlaqəsi diqqət mərkəzində saxlanılmalı, elmi-nəzəri fikirlər kamil bədii sənət nümunələrinə əsaslanmalıdır. Bu zaman ədəbiyyatşünaslıq elminin əsasını təşkil edən ədəbiyyatın ictimai məzmun və mahiyyəti, mənşəyi, predmeti,ictimai-siyasi rolu, idraki və tərbiyəvi əhəmiyyəti kimi anlayışlara diqqət yetirilməlidir. Ədəbiyyatda ideya,estetik ideal, həyat həqiqəti və bədii həqiqət, ümumiləşdimə, fərdilik,sənətkar şəxsiyyəti və onun həyata münasibəti, məzmun və forma vəhdəti,tarixilik və müasirlik, millilik və bəşərilik və s məsələlər proqramın hazırlanmasında əsas tələblər hesab edilmişdir.Bu tələblərə istinadən proqramda kursun tədrisi üzrə anlayışları əhatə edən on beş mövzu təklif olunur. | |
| 26 | **Seçmə fənn:** | 7 |
| 26.1 | **Azərbaycan dramaturgiyası**<br>Fənnin tədrisində əsas məqsəd klassik dramaturgiya, dramaturji struktur, dramaturgiyada ədəbi cərəyanlar, dramaturji janrlar haqqında tələbələrə bilgi vermək, M.F.Axundovdan başlayan Azərbaycan dramaturgiyasının inkişaf istiqamətləri, forma və məzmun xüsusiyyətləri barədə onları ətraflı məlumatlandırmaqdan ibarətdir. Azərbaycan dramaturgiyasının ən görkəmli nümayəndələrinin əsərlərinin müfəssəl təhlili əsasında tələbələrdə XIX – XX əsrlər Azərbaycan dramaturgiyası haqqında tam təsəvvür yaratmaq, onlara gələcəkdə bu sahədə tədqiqat işləri aparmaq təcrübəsini aşılayır. Bu zaman ümumi ədəbi proses fonunda Azərbaycan dramaturgiyasının yaranması, inkişaf istiqamətləri, dramaturji janrların ilk nümunələrinin (komediya, faciə, tarix-faciə və s.) spesifik xüsusiyyətlərinin milli-nəzəri müstəvidə öyrənilməsi məqsədə çatmaq yolları kimi diqqət mərkəzində saxlanılır. Dramaturgiyanın nəzəri əsaslarına yiyələnmək, klassik və muasir Azərbaycan dramaturgiyasının tədrisi və tədqiqinə elmi yanaşma prinsiplərinin öyrənilməsinə nail olmaq məqsədi güdülür.<br>Dramatik növ həyat hadisələrini, insan yaşantılarını və duyğularını bədii boyalarla təsvir etmək üçün mühüm vasitələrdən biri idi. Azərbaycan xalqının fikri inkişaf tarixində XIX əsrin yeni bir istiqamətə dönüş dövrü olmuşdur. Klassik Azərbaycan dramaturgiyasının yaranması və inkişafı da bu mərhələyə təsadüf edir.<br>150 ildən artıq tarixi olan Azərbaycan dramaturgiyasının əsas qaynaqlarından biri də xalq oyunları, mərasimlər, xalq dramı idi. Azərbaycanda da xalq dramı insanların müxtəlif görüşlərindən yaranan məişət mərasimləri içərisində inkişaf etmişdir. Xalq dramı realist dramaturgiyanın izlərini özündə əks etdirir.<br>XIX əsrin sonu XX əsrin əvvəllərində qarşıda duran ən mühüm məsələlərdən biri dramaturgiyada bədii sözün imkanlarının üzə çıxarılması problemi olmuşdur. Müəlliflər müasir cəmiyyətin problemlərini və düşüncə tərzinin xüsusiyyətlərini dramaturgiyaya gətirməklə dramatik dialoqun yeni imkanlarını ortaya qoydular.<br>“Azərbaycan dramaturgiyası” fənnində XX əsr Azərbaycan dramaturqiyasının banisi M.F.Axundovun, onun layiqli davamçıları N.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev və N.Nərimanovun pyeslərinin, Ü.Hacıbəyovun musiqili komediyalarının, romantizmin görkəmli nümayəndəsi H.Cavidin mənzum dramlarının, habelə Yeni və Ən yeni Azərbaycan ədəbiyyatının C.Cabbarlı, S.S.Axundov, | |

| | | |
|---|---|---|
| | S.Vurğun, S.Rüstəm, M.Hüseyn, Ə.Məmmədxanlı, S.Rəhman, İ.Əfəndiyev, B.Vahabzadə, N.Həsənzadə, Anar və Elçin kimi nümayəndələrinin dram yaradıcılığı, eləcə də uşaq dramaturgiyasının nəzəri məsələlərinə toxunulur. | |
| 26.2 | **Mətnşünaslıq**<br>Filologiyanın çox mühüm sahələrindən olan mətnşünaslıq elmi AzərbaycandaXIX əsrin II yarısından formalaşmağa başlamışdır.Erkən orta əsrlərdə Şərqdə təşəkkül tapan bu elm sahəsinin elmi- nəzəri əsaslannrn, metodologiyasmm hazırlanmasında Qərb önə keçmiş.XX əsrdə bir sıra şərq alimlərinin,habelə rus mətnşünaslarının tədqiqatları bu işdə bir tarazlıq yaratmışdır.Bu çətin, lakin zəruri sahədə alimlərimizin ciddi tekstoloji araşdırmalarına baxmayaraq klassik mətnlərlə işin dəqiq və duzgün meyarları hələ də tapılmamış, mükəmməl metodika işlənib başa çatdırılmamışdır.M.Adilov,K.Şərifli və Musabəylinin tədqiqatları istisna olmaqla mətnşünaslığa aid fundamental araşdırmaların demək olar ki,olmaması mövcud azsaylı fənn proqramlarının hazırlanmasına öz təsirini göstərmişdir.Xüsusilə,mətn tarixinin əsas anlayışları məsələsi bir çox hallarda rus alimlərinin,əsasən də D.S.Lixaçovun bu sahədəki tədqiqatlarına uyğunlaşdırılmışdır.Bu məsələ proqramın hazırlanması zamanı yeri gəldikdə rus mətnşünas alimlərinin də araşdırmalarına müraciət edilməsini zəruri etmişdir.<br>Bu fənn tələbələrə mətnşünaslığın predmeti, məqsəd və vəzifələri, Azərbaycan mətnşünaslığmm təşəkkülü və inkişafı,orta əsrlər Azərbaycan əlyazma kitabı,mətn tarixinin əsas anlayışları,tərcümə mətnlərinin tədqiqi,paloqrafik tədqiqat,mətnin nəşrə hazırlanması,Azərbaycan mətnşünaslıq problemləri və s haqqında minimum bilgilər verilməsi məqsədini güdür. | |
| 27 | **Seçmə fənn** | 4 |
| 27.1 | **Əski Azərbaycan yazısı**<br>Bəşəriyyət öz inkişafı tarixində yüzlərcə kəşflər etmişdir; hər bir kəşf öz vəzifə və məqsədinə görə cəmiyyətin tərəqqisində xüsusi rol oynamışdır. Bunlardan ən böyüyü yazıdır. Yazı insanların mədəni inkişafında, onların əldə etdiyi nailiyyətləri nəsildən-nəsillərə çatdırmaqda çox mühüm rol oynayır. Bəşər cəmiyyətinin keçdiyi tarixi inkişaf yollarına dair ən dürüst məlumatı bizə ata-babalarımızın qoyub getdiyi yazılı abidələr verir. Yazı vasitəsi ilə bu gün biz ən qədim xalqların tarixini öyrənirik, onların adət-ənənələrini, yaşayışları ilə tanış oluruq. Həmçinin müasir xalqların, o cümlədən çox qədim keçmişə malik olan Azərbaycan xalqının tarixi haqqında məlumat ala bilirik.<br>Xalqımızın uzaq və yaxın keçmişini, min il ərzində yaratdığı mədəni-mənəvi sərvəti dərindən əxz etmək üçün Azərbaycan-ərəb əlifbası zəruri vasitədir. Respublikamızın təhsil-maarif ocaqlarında əski yazımızın öyrənilməsi geniş vüsət alıb. “Əski Azərbaycan yazısı” fənni filologiya, jurnalistika, şərqşünaslıq, tarix fakültələrində ümumi fənn kimi tədris olunur.<br>“Əski Azərbaycan yazısı” fənnin əsas məqsədi tələbələrə tarixən Azərbaycan yazısının qrafik əsas olmuş ərəb əlifbasını öyrətmək və onlara oxu vərdişi aşılamaqdan ibarətdir. Fənn praktik xarakter daşıyır. Buna baxmayaraq, təcrübi məşğələlər elmi-nəzəri məlumatlarla da dolğunlaşdırlır. Müxtəlif dövrlərin təmsilçisi olan abidələrin yazısına əsasən bəzi qrafik işarələrin qeydə alınan variantlılığı, onların səs göstəriciləri, bir qisminin sinkretik xarakteri, səsləri ifadə etmək baxımından onların diferensiyaya uğrayaraq konkretləşməsi, sabitləşməsi və s. məsələlər mətn oxunuşu zamanı | |

| | | |
|---|---|---|
| | qabarıqlaşdırılır və diqqətə çatdırılır. Nəsx, nəstəliq və şikəstə yazılarının abidələrimizdə aparıcılığı və işləkliyi ilə bağlı məlumatlar fənnin tədrisinin elmi baxımdan əhatəliliyini təmin edir. | |
| 27.2 | **Türk dillərinin öyrənilməsi tarixi**<br>Bu fənn türk adının mənbələrdə müxtəlif şəkildə işlənməsi: Heredotda Tarkita, Hind mənbəsində Turuxa, Çin mənbəsində Tukuyə və s., müxtəlif mənbələrdə türk sözünün mənasının verilməsi barədə məlumat verilir. Qədim türk lüğətində türk "güclü, qüvvətli", digər mənbələrdə "törəmək, güc və qüvvət, intizamlı" və s.kimi izah olunmuşdur. Türk dillərinin tarixi haqqında xarici və yerli türkoloqların fikirlərinə toxunulur. Türk dillərinin inkişaf mərhələlərinin qruplaşdırılması öyrənilir: I.Ən qədim türk dövrü (pratürk mərhələsi)-e.ə.IV minillikdən eramızın V əsrinə qədər; II.Qədim türk dövrü-V-X əsrlər; III.Orta türk dövrü-X-XVI əsrlər; IV.Yeni türk dövrü-XVI-XX əsrlər; V.Ən yeni türk dövrü-XX əsrin sonlarından halhazırkı dövrə qədər. Ən qədim türk dövrünün mərhələləri: Altay mərhələsi və Hun mərhələsi. Qədim türk dövrünün mərhələləri: 1.Tukyu mərhələsi; 2.Uyğur mərhələsi; 3.Qırğız mərhələsi; 4. Bulqar mərhələsi; 5.Xəzər mərhələsi. Qədim türk dövrünün yazılı abidəsi Orxon-Yenisey daşüstü kitabələri haqqında, Uyğur mədəniyyəti, Uyğur dastanları (Törəyiş, Köç) barədə məlumat verilir. Qırğız mərhələsini səciyyələndirən "Manas" dastanının çap olunması, variantları (65 variant) və tədqiq edilməsi işıqlandırılır. Dastanın yığcam məzmunu və ardıcıl mərhələləri barədə danışılır. | |
| 28 | **Seçmə fənn** | 4 |
| 28.1 | **Türkologiyaya giriş**<br>Bu fənn dünyada ən çox inkişaf etmiş elmlər sırasında xüsusi mövqeyə malikdir. Türk xalqlarının milli müstəqillik yoluna çıxdıqları XX əsrin sonlarından etibarən türkoloji araşdırmaların miqyası genişləndiyi kimi, metodoloji imkanları da artmışdır. Təxminən beş min illik tarixi olan türklər dünya mədəniyyətinin inkişafına böyük töhfələr vermiş mükəmməl etnoslardan biridir. "Türkologiyaya giriş" fənninin tədris olunmasında məqsəd tələbələri türk xalqlarının dilləri ilə yanaşı, onların mədəniyyəti, ortaq dəyərləri, müasir vəziyyəti, ümumtürkoloji araşdırmaların nəticələri və s. ilə tanış etməkdir. Bu fənn Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisasının bakalavr pilləsində tədris olunan əsas fənlərdən biridir. Fənnin tədrisinin nəticəsi olaraq tələbələrin türk dillərinin quruluşu, təsnifi, tarixi, ayrılıqda hər bir dilin özünəxas fonetik, leksik və qrammatik xüsusiyyətləri, türk dünyasında gedən müasir proseslər və s. haqda əhatəli bilik və bacarıqlara yiyələnmələri nəzərdə tutulur. | |
| 28.2 | **Azərbaycan onomostikası**<br>Dilin leksik tərkibindəki xüsusi adların cəmi onomastika, ondan bəhs edən dilçilik şöbəsi onomalogiya adlanır. Adlar, onların əlamət və xüsusiyyətlərinin tədqiqi müasir Azərbaycan dilçiliyində diqqəti cəlb edən vacib elmi-tədqiqat sahələrindəndir. Dildəki hər bir xüsusi ad—onomastik vahid ictimai-tarixi inkişafın məhsuludur. Xüsusi adlar keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktlardır. Dilin lüğət tərkibində xüsusi yeri olan onomastik leksikanın dərindən araşdırılması, təhlili, elmi şəkildə ümumiləşdirilməsi xalqımızın dilinin və tarixinin bir çox zəruri məsələlərinin | |

| | | |
|---|---|---|
| | açılmasına kömək edir.<br>Azərbaycan dilçiliyində onomastika məsələləri, əsasən, XX əsrin II yarısından öyrənilməyə başlanmışdır. Dilçiliyimizdə onomastik kateqoriyalardan ən çox tədqiq olunanı toponimlər və antroponimlərdir.<br>"Azərbaycan dilinin onomastikası" fənninin dərindən öyrənilməsi nəticəsində tələbələr xüsusi adların əlamətlərini, apelyativ leksika ilə onomastik leksikanın sərhəddini, onomastikanın başqa elmlərlə əlaqəsini, növlərini, mənbələrini, tərkibini mənimsəmək imkanları əldə edirlər.<br>Fənnin məqsədi xüsusi ad nəzəriyyəsini, onomastik qanunauyğunluqları aydınlaşdırmaq, onomalogiya təliminin müasir vəziyyəti ilə tələbələri tanış etmək, onomastik tədqiqat sahəsində dilçilik elminin qarşısında duran vəzifələri müəyyənləşdirməkdən ibarətdir. | |
| 29 | **Seçmə fənn:** | 5 |
| 29.1 | **Yeni Azərbaycan ədəbiyyatı**<br>Ən yeni Azərbaycan ədəbiyyatı fənni - ədəbiyyat tarixi kursunun son mərhələsi kimi tələbələrə çatdırılır.<br>Ən yeni Azərbaycan ədəbiyyatının xüsusiyyətləri ümiləşdirilir, şair və yazıçıların yaradıcılığına ekskurs edilir, bədii əsərlərdə milli dirçəliş, müstəqillik və azadlıq ideyalarının təsvirindən bəhs edilir.<br>Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Qarabağ və didərginlik mövzusuna diqqət yetirilir, Azərbaycan ədəbiyyatında yaranan yeni ədəbi janrlar və cərəyanlar konkret əsərlər əsasında təhlil edilir.<br>Ədəbi tənqidin müasir ədəbi prosesdə rolu və əhəmiyyəti barədə məlumat verilir.<br>Ən yeni Azərbaycan ədəbiyyatının ictimai-siyasi, sosial-mədəni konteksti təhlil edilir. | |
| 29.2 | **İslam ölkələri ədəbiyyatı**<br>IX-XI əsrlərdə ədəbi-mədəni mühit. İslam dininin qəbul edilməsi. Ədəbi-mədəni mühitin yeni istiqamətdə formalaşmasına təsir. Ərəb dilinin din, elm dili kimi hakim mövqeyə keçməsi. Qaraxanilər hakimiyyəti dövründə Kaşğar və Balasaqun şəhərlərinin ədəbi-mədəni mərkəzə çevrilməsi. Poeziyada lirik-fəlsəfi və əxlaqi-didaktik motivlərə üstünlük verilməsi. Təsəvvüf və divan ədəbiyyatının yazılı ədəbiyyatda səciyyəvi xarakter daşıması. M.Kaşğarlı və onun "Divani-lüğətit türk" əsərinin yazılmasında əsas məqsəd. Quranın nazil olduğu dildə – ərəb dilində danışanlar arasında türk dilinin daha da yayılması və inkişafı. Kiçik Asiyada yazılı klassik ədəbiyyatın yaranması. Əhməd Yəsəvi, Ə.Yüknəgi, Mövlana Cəlaləddin Rumi, Yunus Əmrənin yaradıcılığı. Qul Əli, Durbək, Lütfi poemalarının özünəməxsusluqları. İ.Nəsiminin sufi-fəlsəfi görüşləri. Ətai, Səkkaki, Lütfi və onların yaradıcılıq axtarışları. Ə.Nəvai irsinin Nizami irsindən bəhrələnməsi və Şərq ədəbiyyatına təsiri. M.Füzulinin sufi-irfani görüşləri. M.Fəraqinin ədəbi estetik görüşlərinin formalaşmasının iki əsas mənbəyi: klassik ədəbiyyat və folklor, yaradıcılığında eşq anlayışının sufi mahiyyəti. A.Kunanbayevin yaradıcılığında fəlsəfi-didaktik istiqamətlər. | |
| 30 | **Seçmə fənn** | 5 |
| 30.1 | **Türk dillərinin müayisəli qrammatikası**<br>Bu fənn türk dillərinin ayrı-ayrı qruplar üzrə fonetik tərkibini, səs əvəzlənmələrinin müxtəlifliyini və rəngarəngliyini, leksik cəhətdən türk dillərinin | |

| | | |
|---|---|---|
| | zənginliyini və bununla yanaşı, türk dillərinin lüğət tərkibində baş vermiş dəyişiklikləri, türk dillərində nitq hissələri problemini, onların ənənəvi bölgüsü məsələsini araşdırır, oğuz, qıpçaq, bulqar, karluq-uyğur, uyğur-oğuz, çuvaş və yakut qrupları üzrə dillərin morfoloji və sintaktik quruluşundan bəhs edir. XX əsrin sonlarından etibarən türkoloji araşdırmaların miqyası genişləndiyi kimi, metodoloji imkanları da artmışdır. Müasir türk dilləri qədim dil xüsusiyyətlərini qorumaqla bərabər, bir sıra yeni fonetik, leksik, qrammatik özəlliklər əldə etmişlər. Bu baxımdan “Türk dillərinin müqayisəli qrammatikası” kursu xüsusi əhəmiyyətə malikdir. | |
| 30.2 | **Sosial psixologiya**<br>Sosial psixologiya fənni sosial-psixoloji təfəkkürün əmələ gəlməsi, inkişafı tarixini , metodiki və metodoloji məsələləri, şəxsiyyətin yönəlişləri, sosializasiyanın sosial-psixoloji effektlərini, qrup nəzəriyyəsinin ümumi məsələlərini, ünsiyyətin sosial-psixologiyasını, ünsiyyət prosesində psixoloji təsir məsələlərini öyrənir. Bu kurs daxilində sosial psixologiyanın tarixi və nəzəriyyəsi, elmin formalaşmasının metdoloji əsasları,isanların ünsiyyət və qarşılıqlı münasibətlərinin sosial-psixoloji qanunlarının təhlili, şəxsiyyət problemləri, peşəkar əhəmiyyətli şəxsiyyət əlamətlərinin sistemləşdirilməsi, sabit, müsbət münasibətlərin formlaşdırlması yolları, tətbiqi tədqiqatın əsas istiqamətlərinin öyrənilməsi təqdim olunur. Bununla yanaşı bu fənn şəxsiyyətdaxili (emosiyalar, sosial idrak, yönəliklik, “mən” anlayışı) və şəxsioyyətlərlərarası (digərlərinə kömək etmə, aqressiya, qərəzli münasibət və ayrıseçkilik, cəlb etmə, qrup prosesləri və qruplar arası münasibətlər) səviyyələrdə baş verən prosesləri təhlil edir. | |
| 31 | **Seçmə fənn** | 5 |
| 31.1 | **Poetik məclislər və ədəbi məktəblər**<br>“Poetik məclislər və ədəbi məktəblər” fənni – Azərbaycan ədəbiyyatı tarixi kursunun maraqlı bir mərhələsi kimi tədris proqramına salınmışdır.<br>XIX əsrdə Azərbaycanda fəaliyyət göstərmiş «Divani-hikmət», «Gülüstan», “Əncüməнüş-şüəra», «Fövcül-füsəha», «Beytüs-səfa», “Məclisi-üns», “Məclisi fəramuşan», “Məcməüş-şüəra» kimi ədəbi məclislərin fəaliyyətinini təhlil etmək və bu məclislərin iştirakçılarının həyat və fəaliyyəti öyrənmək.<br>Ədəbi məktəb və cərəyanlar arasındakı fərqi aydınlaşdırmaq.<br>Realizm və romantizm ədəbi məktəblərinin ən görkəmli nümayəndələrinin, habelə maarifçi-didaktik yazıçılarımızın yaradıcılığının araşdırılması,onların ədəbiyyat tariximiz üçün əhəmiyyətli əsərlərinin təhlili əsasında tələbələrdə XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı haqqında dolğun təsəvvür yaratmaq.<br>“Füyuzat”ədəbi məktəbinin irəli sürdüyü ictimai-əxlaqi, bədii-estetik, mədəni-mənəvi problemləri analiz etmək.<br>“Molla Nəsrəddin” ədəbi məktəbinin irəli sürdüyü ictimai-əxlaqi, bədii-estetik, mədəni-mənəvi problemlərin çağdaş dövrlə nə dərəcədə uzlaşdığını və praktik səmərəsini müəyyənləşdirmək.<br>Yazıçı və şairlərinin yaradıcılığında “Füyuzat” və “Molla Nəsrəddin”in ideya və motivlərini izləmək və təhlil etmək.<br>Ən görkəmli ədiblərin yaradıcılığında realizm və romantizm ədəbi cərəyanının təsirini tədqiq etmək. | |
| 31.2 | **XX əsrin əvvəllərində ədəbi məktəblər**<br>XX əsrinəvvəllərində Azərbaycan ədəbi-mədəni mühitində romantizm və tənqidi realizm (“Füyuzat”, “Molla Nəsrəddin”)ədəbi məktəbləri düşüncə modelləri kimi yanaşı fəaliyyət | |

| | | |
|---|---|---|
| | göstərir. Romantizm hər şeydən əvvəl ədəbiyyat tariximizə dünya hadisəsi kimi daxil olmuşdur. Romantizm ədəbi cərəyanı ədəbiyyatımizda XX yüziliyin əvvəllərində təşəkkül tapir və qısa biur müddətdə ədəbi- ictimai düşüncəmizdə çoxrənglilik yaradır. Dövrün ziddiyyətli xarakteri ictimai-siyasi hadisələrin sürətlə dəyişməsi bu ədəbi məktəbin nümayəndələrinin yaradıcılığına sirayət etmişdir. Təbii ki, bu ədəbi cərəyanın ədəbi-estetik prinsiplərini Əli bəy Hüseynzadə “Füyuzat” jurnalına redaktorluq edərkən yaratmışdır. H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiqin yaradıcılığında Şərq romantizminin elementləri olsa da, əsas qayə XX əsrin əvvəllərində Azərbaycan-türk dünyasının qarşıda duran ictima-siyasi gələcəyi ilə bağlı idi. Azərbaycan ədəbiyyatının inkişafında realizm bir mərhələ kimi xüsusilə fərqlənir. Ədəbiyyatımızın elə bir mərhələsi olmamışdır ki, realizm qədər insana bu qədər bağlı olsun, ədəbi prosesi canlandırsın və cəmiyyətə təsir imkanlarına malik olsun. Təbii ki, bu cərəyanın yaradıcısı kimi Mirzə Cəlilin və onun yaratdığı “Molla Nəsrəddin” jurnalının fəal iştirakçılarından olan M.Ə.Sabirin, Ə.Haqverdiyevin, Ə.Qəmküsarın, Ö.F.Nemanzadənin, Ə.Nəzminin çoxcəhətli yaradıcılığı Azərbaycanda azadlıq və müstəqillik ideyalarının təbliği, cəhalətin, xurafatın, ətalətin və meşşanlığın tənqidi sayəsində əvəzsiz rolu olmuşdur. | |
| 32 | **Seçmə fənn** | 5 |
| 32.1 | **Linqvistik tipologiya**<br>Dilçiliyin xüsusi bir şöbəsi olan linqvistik tipologya müxtəlif dillərdə müşahidə olunan əsas, zəruri əlamətlərin səciyyəsini açmaq və ümumi qanunauyğunluqlarını müəyyənləşdirməklə məşğuldur. Tipoloji dilçilik dil tipləri və dil strukturu tipləri haqqında elmdir.<br>Dilçilik tipologiyası və ya tipoloji dilçilik dillərin strukturunda olan xüsusi, tək-tək hallarda özünü göstərən bənzərlik və fərqləri öyrənmir, bəlkə ümumi səciyyə daşıyan, geniş yayılmış halları, geniş miqyasda müşahidə edilən oxşarlığı və fərqləri təsdiq edir.<br>Məlumdur ki, qohum dilləri müqayisə edib öyrənmək zəruri olduğu kimi, tarixən heç bir əlaqəsi, qohumluğu olmayan dillərin müqayisə edilib öyrənilməsi də zəruri hesab edilir. Tarixi və coğrafi baxımdan bir-birindən uzaq olan, yad olan dillərdə də ümumi əlamətlər, eyni dəyişmə üsulları, eyni tarixi proseslər müşahidə edilir. Linqvistik tipologiya mənşəcə cox uzaq olan, ən müxtəlif ailələrinə məxsus olan dillərdə özünü göstərən ümumi prosesləri, dəyişmə və inkişaf qanunlarını öyrənir. Özü də müxtəlif dil sistemlərinin həm fonetika, həm morfologiya, həm də semasiologiya sahəsində müqayisəsi nəticəsində geniş elmi ümumiləşdirmələr mümkün olur. Deməli, tipoloji tədqiqatlar, ümumiyyətlə, dilçilik elminin obyektinin genişləndirməsinə səbəb olur, mənşəcə müxtəlif dil strukturlarının müqayisəsi tədqiqat materialının zənginliyini təmin edir. | |
| 32.2 | **Dastan poetikası**<br>Türk epos ənənəsinin və bədii sisteminin təşəkkülü və inkişafı türk etnomədəni sisteminin təkamülü ilə sıx bağlıdır. Müxtəlif dövrlərdə fərqli inancların və ideoloji (tanrıçılıq, təsəvvüf, şamanizm və s.) süjetqurmaya və personaj sisteminin formalaşmalarına təsirsiz ötüşməmişdir. Türk epos yaddaşınızı formul təbiəti və xronotopik təşkili epos poetikasının əhəmiyyətli məsələləri kimi tədqiq olunur, eləcə də müasir dövrdə Azərbaycan dastançılıq ənənəsinin durumu diaxron-sinxron səviyyələrdə təhlil edilir.Türk dastan ənənəsində epik qəhrəman, mədəni qəhrəman, mifik qəhrəman anlayışlarına aydınlıq gətirilir. Arxaik türk dastanlarının mənşəyi, təhkiyə-süjet sistemi | |

| | | |
|---|---|---|
| | haqqında məlumat verilir, onların "Manas", "Alpamış", "Kitabi-Dədə Qorqud", "Koroğlu" və başqa dastanlarda arxetip funksionallığı qeyd olunur.<br>Məhəbbət dastanlarının obraz-motiv sisteminə təsəvvüf düşüncəsinin təsiri, simvolik obrazların və sufi mənalarının süjetqurmada funksiyası ciddi nəzəri məsələlərdən biridir.<br>Məhəbbət dastanlarının xronotopik (zaman-zaman) təşkili (yuxu zamanı, yol, pəncərə, bağ və s.) təhlil olunan məsələlər sırasında yer alır. | |
| 33. | **Seçmə fənn** | 3 |
| 33.1 | **Mühacirət ədəbiyyatı**<br>Azərbaycan mühacirət ədəbiyyatının özünə dönməsi prosesi artıq çoxdan başlamış, ədəbi-bədii düşüncənin inkişafında yeni reallıqlar ortaya çıxmışdır; indi qalır bu ədəbi, bədii, elmi, tarixi, etnoqrafik irsi birləşdirmək və bütövləşdirmək. Yalnız bu zaman Azərbaycan bədii düşüncəsinin bütövlüyü təmin edilmiş olar. Bunun üçün sistemli və davamlı araşdırmalar lazımdır. Çünki mühacirət irsi mövzu, problematika, forma, janr, ideya, obraz, bədii təsvir və ifadə vasitələri, üslub baxımından o qədər zəngindir ki, onları tam şəkildə öyrənmədən müəyyən nəticələr çıxarmaq da çətindir. Çətinlik həm də ondadır ki, Azərbaycan mühacirlərinin şəxsi arxivləri qorunub saxlanmamış, həm mühacirət mətbuatında, həm də xarici nəşrlərdə dərc etdirdikləri məqalə və əsərləri küll halında hələ geniş oxucu kütləsinin malı olmamışdır. Çağdaş ədəbiyyatşünaslığın üzərinə düşən əsas iş isə bu bədii düşüncəni toplamaq, nəşr etmək, sistemləşdirmək, elmi cəhətdən işləyərək onu doğru-düzgün təhlil etməkdir. Azərbaycan mühacirət irsinin kompleks halda işlənilməsi üçün konseptual bir yol xəritəsinin işlənilməsi və buraya istedadlı gənc tədqiqatçıların cəlb olunması da vacib amillərdən biridir. | |
| 33.2 | **Müasir ədəbi proseslər**<br>Ədəbi proses-ədəbiyyatın istər bir dövrdə, istərsə də, xalqın, ölkənin cəmiyyətin tarixi boyunca mövcudluğu, yaşarlığı və təkamülünü əks etdirir. Hər bir tarixi dövrdə ədəbi proses sosial, ideoloji və estetik baxımdan müxtəlif səpkili və səviyyəli bütün ədəbi-bədii nümunələri- nəsr, dramaturgiya, ədəbi tənqid, ədəbiyyatşünaslıq və s. ehtiva edir. Bir çox hallarda, bədii əsərlər, müxtəlif səbəblər üzündən, yarandıqları vaxtdan, yaxud ilk nəşrindən xeyli sonra ədəbi proses nəticəsinə çevrilir.<br>"Ədəbi proses" termini XX yüzilliyin əvvəllərində yaranmış, sonlarına doğru isə geniş işlənməyə başlamışdır. Azərbaycanda isə ədəbi prosesin sistemli şəkildə 60-70-ci illərdən başlanılmışdır. Müasir Azərbaycan ədəbi prosesinin xüsusiyyətləri sırasına mənəvi-əxlaqi problematikaya marağın güclənməsi, insan konsepsiyasının inkişafı, tarixiliyin qüvvətlənməsi, janr-üslub sayəsində yeni axtarışlar və s. daxildir. Son illərdə "Müsir ədəbi proses" hərəkatı özünün baş məqsədi olaraq müstəqillik dövrünün ən müasir ədəbiyyatşünaslıq elminin yaradılması və yeni elmi nəslin yetişdirilib formalaşdırılmasına uğurla xidmət edir.<br>Fənn kimi "Müsir ədəbi proses" tədris kursu proqramına uyğun olaraq tarixi inkişafın mahiyyətini, qanunauyğunluqlarını, özündə əks etdirir və cəmiyyətin, millətin üzvü olan yaradıcı insanın daxili dünyasında, mənəviyyatında cərəyan edən fikirlərin bədii formada özünü göstərməsi məqamıdır. Kursun ən başlıca vəzifəsi və məqsədi tələbələri müsir ədəbi prosesin ümumi mənzərəsi, uğur və nöqsanları, ədəbi axının | |

| | | |
|---|---|---|
| | istiqamətləri, bədii yaradıcılığın mərhələləri, psixologiyası ilə tanış etmək, gələcəyin ədəbiyyatşünaslarına ədəbi prosesin mahiyyətini, onun mürəkkəb, rəngarəng tərəflərini öyrətməkdən ibarətdir.<br>Tədqiqatçılar janrlar əsasında təhlillər apararkən janrın tipologiyası və poetikası ilə yanaşı, həm də həmin janr mühitində hərəkətverici amil olan ədəbi cərəyanların, metodların və üsulların da təhlilindən bəhs edirlər. "Müasir ədəbi proses"dəki icmallarda Azərbaycan ədəbiyyatının son dövrlərində müşahidə olunan dekadentizmə, bədii nəsrdə postmodernizmə, dramaturgiyada absurd axınlara dair araşdırmalar janrlar üzrə təhlilin içində özünə münasib yer tutur. | |
| 34 | **Seçmə fənn** | 3 |
| 34.1 | **Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | |
| 34.2 | **Multikulturalizmə giriş**<br>Müasir dünya sivilizasiyası tarixdə misli görünməmiş yeni templərlə müşayiət olunan və postindustrial cəmiyyət kimi təzahür edən möhtəşəm bir dövrünü yaşayır. Bu dövrün ən aparıcı motivlərini isə bəşəriyyətin davamlı inkişafının təmin olunması ilə bağlı ideyaların reallaşdırılması, regional və qlobal miqyaslı tədbirlərin həyata keçirilməsi təşkil edir. Bununla əlaqədar sosial-iqtisadi və hərbi-siyasi xarakterli böhranlarla, təlatümlərlə, təbii və sosial məzmunlu kataklizmlərlə çağdaş bəşəriyyəti lərzəyə gətirmiş, XXI yüzilliyin əvvəllərində varlığın davamlı və ləyaqətli inkişafını, sağlam və təhlükəsiz gələcəyini təmin etmək üçün fövqəladə inteqrativ təsir gücünə malik olan ən mütərəqqi nəzəriyyələrin hazırlanması və sosial sferada tətbiq edilməsi zərurəti aktuallaşmışdır. Tarixdə varlığın əsl qurtuluş yolları kimi təzahür edən çoxlu sayda mütərəqqi dini və sivil ideyalar mövcud olmuşdur ki, onlar əxlaqi-mənəvi cəhətdən tənəzzülə uğrayan dünya sivilizasiyalarını həqiqət, inkişaf, tərəqqi yoluna çıxarmış, millətlərin və xalqların sıx birliyini təmin etmişdir. Multikulturalizm müasir münaqişəli cəmiyyətin ən güclü motivlərindən biri, həmişə olduğu kimi, milli məsələ olaraq qalır. Ümid edirik ki, gələcək nəsillərin tolerantlığa, multikultural dəyərlərə hörmət ruhunda tərbiyə olunmasında, çox yüksək əxlaqi-humanist keyfiyyətlərə əsaslanan sivil dünyagörüşünün formalaşmasında sözügedən fənn əlverişli vasitə olacaqdır. | |
| 35 | **Təcrübə** | 30 |
| | **İstehsalat təcrübəsi / layihə**<br>İstehsalat təcrübəsi bir qayda olaraq, peşə hazırlığı və diplomqabağı təcrübədən ibarət olur. Əsas vəzifələri aşağıdakılardı: tələbənin ali məktəbdə aldığı nəzəri bilikləri | |

| | | |
|---|---|---|
| | möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etmək, tələbələri ixtisasının profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, iş üsulları ilə, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək, tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişləri aşılamaq, tələbələrin SMART texnologiyaları sahəsindəki biliklərini təkmilləşdirmək, tələbələrdə peşə istiqamətlərinə olan meyl və marağı möhkəmləndirmək və şəxsiyyətyönümlü təlim işlərini yaradıcılıqla həyata keçirmək bacarığını inkişaf etdirmək. İstesalat təcrübəsinin məqsədlərinə nail olmaq üçün tələbələr tərəfindən aşağıdakı məsələlərin həll edilməsi həyata keçirilir: təhlil üçün vacib olan məlumatların etibarlı mənbədən olmasının yoxlanılması və təhlil edilməsi, tədqiqatın qısa və orta müddətli perspektivdə effektivliyinin yüksəldilməsinə istiqamətləndirilməsi, peşə bacarıqlarının əldə edilməsi və təkmilləşdirilməsi, ali təhsil müəssisələrində nəzəri təlim illərində qazanmış nəzəri bilikləri genişləndirilməsi və sistemləşdirilməsi | |
| | Cəmi | 240 |

## 1. Tədris və öyrənmə

1.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.
1.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.
1.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.
1.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:
- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil işlaraşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

**Qeyd:** sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.

1.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.
1.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 2. Qiymətləndirmə

2.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, halda olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.
2.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn programında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, programın broşurlarında və s.).
2.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.
2.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:
-yazılı tapşırıqlar;
-bilik və bacarıqlara dair testlər, kompüter əsaslı testlər;
-şifahi təqdimatlar;
-sorğular;
-açıq müzakirələr;
-praktika hesabatları, sahə işləri hesabatları;
-praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
-layihə işlərinə dair hesabatlar;
-portfolionun qiymətləndirilməsi;
-frontal sorğu;
-qrup şəklində və özünü qiymətləndirmə;
və s.
*Qeyd: sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və ya dəyişdirilə bilər.*
2.5.Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan

vermәlidir. Tәlim nәticәlәrinin qiymәtlәndirilmәsi zamanı müәllimlәr şәffaflıq, qәrәzsizlik, qarşılıqlı hörmәt vә humanistlik prinsiplәrini rәhbәr tutmalıdırlar.
2.6. Tәlәbәlәrә müәllimlәrlә/qiymәtlәndiricilәrlә tәhsillәrinin bütün aspektlarini, o cümlәdәn qiymәtlәndirmә prosesini müzakirә etmәk imkanı verilmәlidir. Ali tәhsil müәssisәsi müvafiq qaydalara uyğun olaraq qiymәtlәndirmә prosesi, yaxud qiymәtlә bağlı apelyasiya prosedurlarını müәyyәn etmәlidir.
2.7. Akademik etika tәhsil prosesindә önәmli yer tutur. Tәlәbәlәrә akademik dürüstlüyә riayәt etmәk, plagiarizm problemini anlamaq öyrәdilir. Onlar intellektual әmәyin әqli mülkiyyәt hüquqları barәsindә malumatlandırılmalıdırlar.

## 3. Proqramın va hәr bir fәnnin tәlim nәticәlәri

3.1. Tәhsil programının tәlim nәticәlәri, elәcә dә hәr bir fәnnin tәlim nәticәlәrinin müәyyәnlәşdirilmәsi vә hәr bir fәnnin sillabusunun hazırlanması ali tәhsil müәssisәsinin/akademik heyәtin sәlahiyyәtindәdir.
3.2. Tәlim nәticәlәri hәr bir ali tәhsil müәssisәsi tәrәfindәn Әlavә 1-dәki formaya uyğun olaraq müәyyәnlәşdirilir. Tәlim nәticәlәri matrisindә ( Әlavә 2) fәnlәrlә tәlim nәticәlәri arasındakı әlaqә әks olunmalıdır.
3
.3. Tәhsil Proqramının cәmiyyәtin vә әmәk bazarının dәyişәn ehtiyaclarına cavab verәn nәzәri vә praktiki mәzmunu tәmin etmәsi mәqsәdilә fәnlәrin sillabusları müntәzәm şәkildә yenilәnmәlidir.

## 4. İnfrastruktur va kadr potensialı

4.1 **"050205 Filologiya"** ixtisasının tәhsil proqramına müvafiq hazırlanmış tәdris planında nәzәrdә tutulan fәnlәr üzrә dәrslәrin aparılması, tәcrübәlәrin keçirilmәsi vә elmi- tәdqiqat işlәrinin yerinә yetirilmәsi üçün müvafiq İKT ilә tәchiz olunmuş kabinet vә laboratoriyalar, kompüter siniflәri, emalatxanalar vә s. ilә tәmin olunmuş maddi-texniki bazası olmalıdır. Tәhsilalanların ali tәhsil müәssisәsinin lokal şәbәkәsinә, internetә, mәlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlәrinә çıxışı tәmin edilmәlidir.
4.2. Ali tahsil müәssisәlәrinin professor-müәllim heyәti, bir qayda olaraq, elmi dәrәcәyә malik olur. Digәr dövlәt, yaxud özәl müәssisәlәrdәn vә/vә ya digәr müvafiq taşkilatlardan gәlәn yüksәk ixtisaslı mütәxәssislәr, hәmçinin müvafiq ixtisas qrupu üzrә minimum magistr dәrәcәsinә sahib olan şәxslәr dә tәdrisә cәlb oluna bilәrlәr.

## 5. Tәcrübә

5.1. Tәcrübә tәlәbәnin nәzәri biliklәrinin praktikada tәtbiqi, elәcә dә peşә bacarıqlarının güclәndirilmәsi baxımından önәmlidir. İxtisasın xüsusiyyәtlәrindәn asılı olaraq tәcrübәnin tәşkili qayadaları ali tәhsil müәssisәsi tәrәfindәn müәyyәn oluna bilәr.
5.2. Tәcrübә özәl şirkәtdә, dövlәt müәssisәsindә, tәdqiqat laboratoriyasında (elәcә dә universitet, AMEA, yerli, yaxud beynalxalq özәl tәşkilat vә şirkәtlәrdә vә s.) tәşkil oluna bilәr.

5.3 Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanmasi) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) formalaşdırılmalıdır.
5.4. Təcrübənin təşkili ali tahsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarini araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasinda onun ixtisasina uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.
5.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanlari, problemlərə həll yollari tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.
5.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyasi nümayəndələri tərəfindən həyata keçiriləcəkdir.

## 6. Məşğulluq və ömürboyu təhsil

**6.1. "050205 Filologiya"** ixtisasi üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında, yerli özünüidarəetmə orqanlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə filoloq mütəxəssis/məsləhətçi olaraq fəaliyyət göstərə bilərlər. Bundan əlavə, məzunlar tabeliyindan asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, nazirlik və kornitələrdə həmçinin agentlikliklərdə və araşdırma/beyin mərkəzlərində mütəxəssis/ məsləhətçi olaraq da çalışa bilərlər.
**6.2**. Odlar Yurdu Universiteti Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair malumatları öz veb səhifəsində yerləşdirməlidir.
**6.3**.Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

**Tədrisin təşkili və yeni təlim texnologiyaları üzrə prorektor: dos. Q.A.Qafarov**

**Tədris və metodiki işlər departamentinin rəhbəri: dos. İ.U.Rəhimov**

**Dillər kafedrasının müdiri: dos.N.S.Vəliyev**

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir.

| Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə yiyələnir, bir neçə xarici dildə sərbəst istifadə etməyi bacarır. |
| PTN 2. Empirik və analitik tədqiqat vərdişlərini inkişaf etdirmək; müqayisa, qarşılaşdırma analiz və sintez kimi elmi-akademik bacarıqlar formalaşdırmaq; saha işi, məlumatın toplanması, emalı va sistemləşdirilməsi vərdişlərini əldə etmək |
| PTN 3. Dilin müxtəlif funksional üslublarını müvafiq situasiyalarda uğurla tətbiq edə bilmək; dil vərdişlərini praqmatik-kommunikativ, mədəniyyətlərarası ünsiyyət, sosiolinqvistik kompetensiya baxımından istifadə edə bilmək; bütün bunların əsasında konkret dil materialını və mətnin qurulması xüsusiyyətlərini təhlil edə bilmək |
| PTN 4. Dilin tarixi inkişaf mərhələlərini əks etdirən mətnləri ayırd etmək; ədəbi qaynaqlarda müvafiq dövrü əks etdirən dil xüsusiyyətlərini anlamaq va təhlil edə bilmək |
| PTN 5. Dilin sistemini, strukturunu, mahiyyətini, funksiyalarını, eləcə də dil vahidlarinin özəlliklərini anlamaq; bunların elmi izahını verə bilmək; bunları mətn daxilində ayırd etmək və təhlil etmək |
| PTN 6. Ayrı-ayrı dilçilik məktəbləri/cərəyanları və onların məşğul olduqları problemlər haqqında müfəssəl bilik əldə etmək; bu məktəbləri/cərəyənları qarşılaşdırmalı şəkildə təhlil edə bilmək; dilin sisteminin/strukturunun tədqiqatı baxımından bu məktəblərin/cərəyanların tənqidi təhlilini vermək; dillə bağlı müasir dövrda hansı araşdırma istiqamətlərinin (və nə üçün) prioritet təşkil etməli olduğu haqda şaxsi mülahizə yürüdə bilmək |
| PTN 7. Ədəbi formaları, janrlar, ədəbi-bədii üslubları anlamaq, mətn daxilində ayırd etmək və ədəbi əsərləri bu baxımından təhlil etmək |
| PTN 8. Bədii təsvir və ifadə vasitələrini mənimsəmək, ayırd edə bilmək və yazılı və şifahi nitq prosesində - lazım gəldiyində və ya verilən tapşırığın bir hissəsi kimi tətbiq edə bilmək |
| PTN 9. Ədəbi mətni oxuyub təhlil etmək və ədəbi əsərdə qoyulmuş problemi müəyyən edib bu haqda sərbəst mülahizə yürütmək |
| PTN 10. Müasir ədəbi prosesləri anlamaq va bu proseslərin müasir dövrün müxtəlif tendensiyalarını, problemlərini, prioritetlərini və s. nə cür əks etdirdiyi haqda mülahizələr irəli sürmək |
| PTN 11. İxtisas dilinin əsas dil olduğu ölkə(lər)in/region(lar)ın tarixi, coğrafi, siyasi, mədəni, etnoqrafik va sosial xüsusiyyətləri ilə bağlı təməl biliklərə sahib olmaq |

## Fənn üzrə təlim nəticələri (FTN)

| **“Azərbaycan tarixi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən, ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| FTN2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəkküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| FTN3 Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| FTN4 Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| FTN5 Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| FTN6 Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| FTN7 Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |

| **“Azərbaycan dilinda işgüzar va akademik kommunikasiya ” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1. Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. |
| FTN2 Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi va yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsind öyrənmək. |
| FTN3 Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcıllq texnologiyalarını mənimsəmək. |
| FTN4 Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| FTN5 Dövlət dili haqqında fərman və sərəncamlar, “Ulu öndər Heydər  Əliyev və Azərbaycan dili” mövzusunda taqdimatlar hazırlamağı öyrənmək; |
| FTN6 “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənninin məqsəd və vəzifələrini bilmək |

| |
|---|
| FTN7 Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| FTN 8 Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatlara və qaydalar öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq |
| FTN 9 Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kornmunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafıya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| FTN 10 Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi taqdimatlar hazırlamağı bacarmaq |

| **“Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
